

# Bakıdan Daşkəndə qardaşlıq körpüsü

**Oktyabrın 27-də Özbəkistan parlamentinin aşağı palatası – Ali Məclisin Qanunvericilik Palatasına və yerli şuralara (vilayət, şəhər, rayon) seçkilər keçirildi. Seçkilərdə seçicilərin 14,2 milyon nəfəri iştirak etdi ki, bu da 75,52 faiz deməkdir. Özbəkistan qanunlarına görə seçkilər baş tutmuş hesab edilir. Qardaş ölkənin qanunvericilik orqanına keçirilən seçkilərin uğurla başa çatması Azərbaycan – Özbəkistan münasibətlərinin inkişafı baxımından da xüsusi əhəmiyyət daşıyır.**

*(ardı 3-cü səhifədə)*





Xalqın qəzeti!

# Xalq qəzeti

№ 238 (30642) 29 oktyabr 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Ermənistan vaxtı uzatmaqla məşğuldur



Səhifə ⇨ 3

## Erməni müşahidəçilər "gül vurdular"



Səhifə ⇨ 4

# COP29: Azərbaycan paytaxtı "yaşıl" gələcəyə qapı açır



**Qlobal problemlərin mənfi təsirlərinin getdikcə artması bəşəriyyəti ciddi şəkildə narahat edir. Yaranmış vəziyyət dünya dövlətləri və beynəlxalq təşkilatlar arasında birgə əməkdaşlığı, müxtəlif səviyyələrdə koordinasiyalı fəaliyyətin göstərilməsi zərurətini yaradır. Hazırda iqlim dəyişikliyinin canlı aləmə zərərli təsirinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlərin görülməsi dünya birliyinin diqqət mərkəzində dayanır.**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) kimi mötəbər tədbirin keçirilməsi cəmiyyət–təbiət münasibətlərində özünü göstərən neqativ meyillərin qarşısının alınması, xüsusilə, qlobal ekoloji təhlükəsizliyin təmin olunmasının vacibliyindən irəli gəlir. COP-un 29-cu sessiyasının bu ilin noyabr ayında Azərbaycanın sədrliyi ilə Bakı şəhərində təşkili xalqımızın həyatında əlamətdar tarixi hadisələrdən biri olacaq. Qeyd edək ki, bu mötəbər tədbirin ölkəmizdə keçirilməsinin əsasında ciddi siyasi-iqtisadi səbəblər dayanır. Xüsusilə, davamlı inkişaf çərçivəsində ətraf mühitin qorunması, qlobal ekoloji problemlərin həlli məqsədilə milli və beynəlxalq səviyyələrdə göstərdiyi fəallıq ölkəmizin COP29-a evsahibliyi etməsini şərtləndirən mühüm faktorlardır.

**(ardı 8-ci səhifədə)**

## "Köhnə avtomobili ver, yenisini al!"



**Azərbaycanda köhnə avtomobillərin utilizasiyasına başlanılıb. Bu günlərdə "Fors" MMC utilizator şirkəti avtomobilini utilizasiyaya təhvil verən ilk vətəndaşa sənəd təqdim edib.**

Bu barədə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətindən məlumat verilib. Qeyd olunub ki, ölkəmizdə hər il istismar olunan çox sayda nəqliyyat vasitəsi köhnəlmə və yol-nəqliyyat hadisələri nəticəsində istifadəyə yararsız hala düşür.

**(ardı 7-ci səhifədə)**

# Birlik və vəhdətin qələbəsi

## *Qərbin Cənubi Qafqaz "ssenarisində" növbəti fiasko*

**Gürcüstanda keçirilmiş parlament seçkiləri xalq iradəsinin növbəti təntənə anı kimi yadda qaldı. Belə qənaət üçün kifayət qədər ciddi əsaslar var və bu baxımdan bəzi məqamların üzərində dayana bilərik.**

Başlıca məqam ondadır ki, Gürcüstan seçicilərinin əksəriyyəti sabitliyə və əmin-amanlığa səs verdi. Bəs ölkənin sabitlik faktoru ilə bağlı nələri vurğulamaq mümkündür? Yazımızda həm buna diqqət yetirəcək, həm də Gürcüstanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının soydaşlarımızla bağlı özəlliklərinə nəzər salaraq, bu iki faktorun seçkinin nəticələri baxımından oynadığı roldan söz açacağıq.

Məlum olduğu kimi, artıq neçə müddətdir ki, Qərb Gürcüstanda vəziyyəti qarışdırmaqla məşğuldur. Daha doğrusu, mövcud istiqamətdə çoxsaylı cəhdlər göstərir. Bu baxımdan, xarici agentlər haqqında qanun layihəsi ətrafında yaradılmış süni ajiotajdan, iğtişaşlardan, xarici kəşfiyyat orqanlarının ölkədə çevriliş planı hazırlamalarından tutmuş, hakimiyyət daxilində ikitirəliyin formalaşdırılmasınadək bir sıra məsələlərə diqqət yetirmək olar.

**(ardı 4-cü səhifədə)**



# İrəvanın "gizli revanşizmi"




**Ermənistan rəhbərliyinin təmsilçiləri yenə cəfəng məsələlərlə məşğuldurlar. Əslində, biz onların dilə gətirdiklərinə bu prizmadan yanaşırıq. Rəsmi İrəvana gəldikdə isə onun üçün cəfəngiyyata varmaq çox adi haldır. Yəni məsələ dövlət siyasətinin "mühüm tərkib hissəsidir". Ən böyük problem də elə budur.**

Söhbət Qarabağın "erməni mirası" adlandırılan sərsəmlikdən gedir. Hazırda dilini dinc qoymayan Ermənistanın xarici işlər nazirinin müavini Vaan Kostanyan uydurur bunu. V.Kostanyan təsmil olunduğu qurumun, ölkənin Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin və UNESCO-nun birgə təşkilatçılığı ilə keçirilmiş konfransdakı çıxışı zamanı nələri dilə gətirib, bu barədə söz açacağıq. Hələlik isə bəzi məqamları diqqətə çatdıraq.

**(ardı 6-cı səhifədə)**

# Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Pakistan İslam Respublikası Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Sahir Şamşad Mirzanı qəbul edib.**

Dövlətimizin başçısı general Sahir Şamşad Mirzanın səfərinin ölkələrimiz arasında güclü tərəfdaşlıq, müdafiə və digər sahələrdə əməkdaşlıq məsələlərinin bir daha nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığını dedi.

Prezident İlham Əliyev bu il qardaş Pakistana dövlət səfərinin çox uğurlu və məhsuldar keçdiyini vurğulayaraq, bunun dostluq və qardaşlıq münasibətlərimizin daha yüksək səviyyəyə qalxması işinə töhfə verdiyini bildirdi.

Dövlətimizin başçısı ölkələrimizin ərazi bütövlüyü və suverenliyi məsələlərində bir-birini həmişə dəstəklədiyini və bundan sonra da dəstəkləyəcəyini qeyd etdi.

Əməkdaşlığımızın, o cümlədən, ticarət sahəsində əlaqələrimizin əsas istiqamətlərinin artıq müəyyənləşdirildiyini bildirən dövlətimizin başçısı dedi ki, özünün Pakistana dövlət səfəri zamanı Azərbaycanın bu ölkəyə 2 milyard ABŞ dolları məbləğində investisiya qoyuluşu imkanları barədə bəyanat verilib və bu sahədə sıx əməkdaşlıq hər iki tərəf üçün faydalı ola bilər.

Müdafiə sahəsində əməkdaşlığa toxunan Prezident İlham Əliyev bir müddət əvvəl artıq Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalına daxil edilən "JF-17C" təyyarələrinə baxdığını məmnunluqla xatırlayaraq, onların dünya səviyyəsində ən yaxşı təyyarələrdən olduğunu dedi. Dövlətimizin başçısı bu hadisənin müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlığımızın daha da gücləndirilməsi işinə xidmət etdiyini vurğuladı. Prezident İlham Əliyev müdafiə sənayesi ilə bağlı genişhəcmli əməkdaşlıqda, o cümlədən, istehsal, investisiya, texnologiyalar sahələrində uğurlu nəticələrin əldə olunacağına əminliyini bildirdi.

Dövlətimizin başçısı Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin COP29 tədbirində iştirakının və gələn il ölkəmizə dövlət səfərinin Azərbaycanda səbirsizliklə gözlənildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrinin Bakıda keçirəcəyi görüşlərin uğurlu olacağına ümidvar olduğunu bildirdi.

Azərbaycan dövlətinin başçısı ilə görüşündən şərəf duyduğunu vurğulayan Sahir Şamşad Mirza Prezident İlham Əliyevin əfsanəvi şəxsiyyət olduğunu qeyd etdi. Qonaq Pakistan Prezidenti Asif Əli Zərdari və Baş nazir Məhəmməd Şahbaz Şərifin salamlarını, Pakistan xalqının ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

Sahir Şamşad Mirza Azərbaycan Prezidentinin Pakistana dövlət səfərinin ikitərəfli münasibətlərimizin inkişafında tarixi təməl daşı olduğunu dedi.

Qonaq ölkəmizdə keçirilən prezident seçkilərində İlham Əliyevin, parlament seçkilərində isə hakim Yeni Azərbaycan Partiyasının qələbəsinin önəmini qeyd edərək vurğuladı ki, dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin müdrik siyasətinin davamçısıdır. Sahir Şamşad Mirza qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin inkişafı fenomenal hadisə olmuşdur. Qonaq bu cür inkişafa, o cümlədən, ümumi daxili məhsulun və əhalinin rifah halının artma templərinə heç bir ölkədə rast gəlinmədiyini dedi.

Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Vətən müharibəsində Azərbaycanın Qələbəsinin önəmini vurğulayaraq qeyd etdi ki, ölkəmizin əsgər və zabitlər ilə bağlı baxışı, yerli istehsalın təşviqi, müharibədə müdafiə sənayesi kompleksi və güclü hərbi imkanlarla bərabər, müdafiənin bir növü olan qabaqlayıcı strategiyanın tətbiqi dünyaya çox aydın bir mesaj oldu ki, Azərbaycan hədəfə köklənib və irəliləyir.

Ölkəmizdə gedən inkişaf proseslərinin nümunə olduğunu qeyd edən qonaq Pakistanın Azərbaycan ilə qardaşlıq əlaqələrinin qarşılıqlı inama, səmimiliyə, əməkdaşlığa, mədəni əsaslara söykəndiyini dedi. O, qarşıdan gələn Zəfər Günü münasibətilə təbriklərini çatdırdı və bu bayramın Pakistanda da qeyd edildiyini məmnunluqla vurğuladı.

Sahir Şamşad Mirza qeyd etdi ki, Kəşmir məsələsində Azərbaycan Pakistanın yanında olduğu kimi, Ermənistan məsələsində də Pakistan Azərbaycanın yanındadır.

***AZƏRTAC***

# *Türkiyə Prezidenti:* Cənubi Qafqazda sülh üçün tarixi şans yaranıb



**"Qarabağın 30 illik işğaldan azad edilməsi ilə Cənubi Qafqazda uzunmüddətli sülh üçün unikal şans yaranıb".**

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada hökumətin iclasının yekunlarına dair brifinqdə bildirib.

Türkiyə liderinin sözlərinə görə, Ankara "qardaş Azərbaycanın və Ermənistanın səmimi addımlarını" diqqətlə izləyir: "Biz ümid edirik ki, ən tez zamanda yaxşı xəbərlər alacağıq", - deyə Ərdoğan vurğulayıb.

Türkiyə Prezidenti əmin edib ki, Ankara bundan sonra da Azərbaycandan olan qardaşları ilə addımlarını əlaqələndirəcək.

***XQ***

# FHN COP29-a hazırlıq işlərini yekunlaşdırır

**Noyabrda Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına hazırlıqla bağlı Fövqəladə Hallar Nazirliyi üzərinə düşən vəzifələrin icrasını davam etdirir.**




Bu barədə FHN-in mətbuat xidmətindən bildirilib. Qeyd edilib ki, bu məqsədlə cari ilin yanvar ayında FHN-də tərkibinə nazirliyin rəhbər vəzifəli şəxslərinin daxil olduğu Qərargah və onun tərkibində müvafiq sahələr üzrə peşəkar mütəxəssislərdən ibarət işçi qruplar yaradılıb, Tədbirlər Planı hazırlanaraq təsdiq edilib.

"Təsdiq olunan Tədbirlər Planı üzrə qarşıya qoyulan tapşırıqların yüksək səviyyədə icrası üçün nazirliyin bütün qüvvələri ilk gündən səfərbər olunub. Bu çərçivədə, FHN-in müvafiq qurumları tərəfindən əhalinin, o cümlədən qonaqların təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsi üçün səlahiyyətləri çərçivəsində obyektlərdə yanğın, texniki, tikinti və radiasiya təhlükəsizliyi sahələri üzrə müayinə və monitorinqlər həyata keçirilir, maarifləndirmə, mümkün fövqəladə hallara çevik reaksiya verilməsi, habelə Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması və digər istiqamətlərdə zəruri tədbirlər görülür.

COP29-a hazırlıqla bağlı fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə mütəmadi olaraq müşavirələr keçirilir, görülmüş işlərə dair Qərargah üzvlərinin hesabatları təqdim olunaraq geniş müzakirəsi aparılır, aidiyyəti təhlükəsizlik məsələlərinin həllinə dair zəruri tapşırıqlar verilir, icrası nəzarətə götürülür", – deyə nazirlikdən bildirilib.

Əlavə olunub ki, COP29-a hazırlıqla bağlı FHN tərəfindən işlərin böyük hissəsi yerinə yetirilib.

***XQ***

# Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri cənab Şavkat Mirziyoyevə

**Hörmətli Şavkat Miromonoviç!**

**Əziz Qardaşım!**

Özbəkistan Ali Məclisinin Qanunvericilik palatasına seçkilərin uğurla keçirilməsi münasibətilə Sizi və qardaş xalqınızı ürəkdən təbrik edirəm.

Qardaş Özbəkistanın tarixində ilk dəfə olaraq qarışıq seçki sistemi üzrə keçirilmiş bu səsvermə ölkənizin demokratik dövlət quruculuğu prinsiplərinə sadiqliyini bir daha bariz şəkildə nümayiş etdirdi.

Səsvermənin nəticələri xalqınızın Sizin qətiyyətlə yürütdüyünüz siyasi xəttə olan inam və etimadının təzahürü, Özbəkistanın daha da inkişafı və qüdrətlənməsi istiqamətində xidmətlərinizə real dəstəyinin ifadəsidir.

Yeni tərkibdə fəaliyyətə başlayacaq Ali Məclisin Qanunvericilik palatasının işinə müvəffəqiyyətlər arzulayıram.

Fürsətdən istifadə edərək bir daha Sizə səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Özbəkistan xalqının rifahı və firavanlığı yolunda ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar və nailiyyətlər diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 oktyabr 2024-cü il**

# Gürcüstanın Baş naziri Zati-aliləri cənab İrakli Kobaxidzeyə

**Hörmətli cənab Baş nazir!**

Gürcüstanda keçirilmiş parlament seçkilərinin nəticələri və ölkənizin aparıcı siyasi qüvvəsi olan "Gürcü Arzusu – Demokratik Gürcüstan" partiyasının qələbəsi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu səsvermə vasitəsilə Gürcüstan vətəndaşları inkişafa, sabitliyə və ənənəvi dəyərlərə öz dəstəyini ifadə etdilər. İnanıram ki, seçkilərin nəticələri Gürcüstanın hərtərəfli inkişafına və çiçəklənməsinə xidmət edəcəkdir.

Eyni zamanda, seçkilərin nəticələrinin tarixən dostluq, qardaşlıq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan–Gürcüstan dövlətlərarası əlaqələrinin davamlı inkişafına, Cənubi Qafqazda və daha geniş coğrafiyada ölkələrimizin mövqelərinin daha da möhkəmlənməsinə töhfə verəcəyinə inamımı ifadə edirəm.

Siyasi dialoqumuzu davam etdirmək üçün Sizi münasib vaxtda Azərbaycana rəsmi səfərə dəvət edirəm.

Əminəm ki, ölkələrimizin və xalqlarımızın firavanlığı, regionumuzun rifahı və təhlükəsizliyi naminə strateji tərəfdaşlığımızın möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada qarşılıqlı faydalı fəaliyyətimizin müvəffəqiyyətlə davam etdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı çatdırır, dost Gürcüstan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2024-cü il**

# Çex Respublikasının Prezidenti Zati-aliləri cənab Petr Pavelə

**Hörmətli cənab Prezident!**

Çex Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Çexiya arasında dostluq münasibətlərinin genişlənməsi, əməkdaşlığımızın inkişafı üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 oktyabr 2024-cü il**

# Əli Əsədov gürcüstanlı həmkarını təbrik edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 28-də Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə təbrik məktubu ünvanlayıb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, Ə.Əsədov Gürcüstanda keçirilmiş parlament seçkilərində "Gürcü Arzusu – Demokratik Gürcüstan" partiyasının qalib gəlməsi münasibətilə İ.Kobaxidzeyə təbriklərini çatdırıb, bu qələbəni dost Gürcüstan xalqının ölkədə həyata keçirilən siyasi kursa dəstəyinin növbəti təsdiqi kimi qiymətləndirib.

Seçkilərin nəticələrinin Gürcüstanın tərəqqisinə və daha da çiçəklənməsinə xidmət edəcəyinə, eyni zamanda, iki xalq arasında çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq münasibətlərinin hərtərəfli inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

# BRICS ölkələrinin statistika toplantısı



**Oktyabrın 28-29-da Kazan şəhərində BRICS-ə üzv ölkələrin milli statistika xidmətləri rəhbərlərinin 16-cı görüşü keçirilir. Tədbirdə qonaq qismində ölkəmizi Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil edir.**

Tədbir statistik istehsalın modernizasiyası, statistika peşəsinə müasir tələblər, Rusiyada və BRICS ölkələrində statistika cəmiyyətinin inkişafına dair sessiyalardan ibarətdir.

Dövlət Statistika Komitəsindən XQ-yə verilən məlumata görə, görüş çərçivəsində rəsmi statistikanın inkişafı ilə bağlı 2030-cu il hədəflərini özündə əks etdirən milli strategiyalar, siyahıyaalmalar, dayanıqlı inkişaf məqsədləri göstəriciləri, irihəcmli məlumatlara dair BMT qlobal platforması, məlumat ekosistemində yeni inkişaf dövrü və rəqəmsal həllər, smart statistika, süni intellektdən statistik məqsədlər üçün istifadə və bu sahədə prioritetlər və problemlər müzakirə edilir.

Tədbir çərçivəsində BRICS ölkələrində birgə statistik nəşrlərin və əsas statistik göstəricilərin onlayn platformaları haqqında təqdimatların edilməsi də nəzərdə tutulub.

***XQ***

# Bakıdan Daşkəndə qardaşlıq körpüsü

(əvvəli 1-ci səhifədə)

Ümumiyyətlə, Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya ölkələri, o cümlədən, Özbəkistanla əlaqələrin inkişafı mühüm yer tutur. Son illər Mərkəzi Asiyanın dinamik inkişaf edən ən böyük dövlətlərindən biri olan Özbəkistan ilə əlaqələrimiz sürətlə inkişaf edir. Münasibətlərin intensiv inkişafına Özbəkistan və Azərbaycan xalqları arasında oxşar milli adət və ənənələr, ortaq dil, mədəniyyət və din amili böyük rol oynayır. Hər keçən gün yeni məzmunla zənginləşən münasibətlərin bütün sahələrdə genişlənməsi və dərinləşməsi güclü siyasi iradə, qarşılıqlı inam və etimada əsaslanır.



Azərbaycan və Özbəkistan strateji tərəfdaşdırlar, ölkələrimiz arasında ikitərəfli əlaqələr bütün səviyyələrdə inkişaf edir ki, bu da həm geosiyasi, həm də geoiqtisadi baxımdan çox əhəmiyyətlidir. Tarixən yaxın tərəfdaş olan qardaş ölkələrimiz arasında sıx əlaqələr, qarşılıqlı siyasi etimad mövcuddur. Hər iki dövlət beynəlxalq və regional təşkilatlar çərçivəsində qurulan səmimi münasibətləri yüksək qiymətləndirir, bir-birini dəstəkləyir. Azərbaycanla Özbəkistan arasında beynəlxalq təşkilatlar, o cümlədən, BMT, İƏT, MDB çərçivəsində sıx əməkdaşlıq əlaqələri mövcuddur. Hər iki ölkə Türk Dövlətləri Təşkilatının üzvüdür.

Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin rəhbərliyi ilə siyasi, ticarət-iqtisadi və mədəni-humanitar tərəfdaşlıq inkişaf edir. Dövlət başçımız çıxışlarında hər zaman xalqlarımızın aktual problemləri ilə bağlı maraqların və mövqelərin oxşarlığını vurğulayır, strateji tərəfdaşlıq və səmərəli əməkdaşlıq üçün perspektivlərin mövcudluğunu qeyd edir. Prezident İlham Əliyevin 2024-cü il avqustun 22-də Özbəkistana dövlət səfərindən sonra münasibətlər strateji səviyyəyə yüksəldi. Məhz bu səfər zamanı "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Müqavilə imzalandı. Bu saziş Azərbaycana və Özbəkistana beynəlxalq arenada bir-birini dəstəkləyən müttəfiq dövlətlər kimi çıxış etməyə imkan verir.

Xüsusi qeyd etmək lazımdır ki, Özbəkistanın Türk Dövlətləri Təşkilatına (TDT) daxil olması türk dünyasının birliyinin möhkəmlənməsində əlamətdar hadisə oldu. Bu da təsadüfi deyil, çünki Özbəkistan türk-islam sivilizasiyasının önəmli ölkəsidir. Daşkənd ümumtürk əməkdaşlıq platformasının inkişafına və TDT məkanının ümumi potensialının artırılmasına mühüm töhfə verir. Bu, ilk növbədə, Özbəkistanın türk dünyasında oynadığı böyük rolu ilə izah olunur. Əlbəttə, Özbəkistanın TDT-yə üzv olmaq qərarı Prezident Şavkat Mirziyoyevin fundamental siyasi kursunun məntiqi davamı idi. Belə ki, rəsmi Daşkənd Mərkəzi Asiya dövlətləri və qonşu regionlarla, o cümlədən Cənubi Qafqaz ilə keyfiyyətcə yeni, mehriban qonşuluq və qarşılıqlı faydalı münasibətlər qurulmasında, Avrasiyanın nəhəng məkanında sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsində maraqlıdır. Bu baxımdan Azərbaycan - Özbəkistan strateji müttəfiqliyi Türk dünyasının güclənməsinə xidmət etməklə yanaşı, iki böyük materikin iki mühüm regionu arasında əlaqələrin inkişafına da güclü təsir göstərəcəyi nöqteyi-nəzərindən vacibdir.

Bir sözlə, Mərkəzi Asiya ölkələri ilə möhkəm əlaqələrin qurulması Prezident İlham Əliyevin gələcəyə hesablanmış xarici siyasətinin əsas istiqamətini təşkil edir. Eyni zamanda, Azərbaycan Avropa ilə əməkdaşlığı gücləndirməklə Mərkəzi Asiyanı Qərblə birləşdirən körpü rolunu səmərəli şəkildə yerinə yetirir. Bu kontekstdə Azərbaycan və onun yaxın tərəfdaşı Özbəkistan arasında həm cari, həm də qarşıda duran birgə təşəbbüslər yeni nəqliyyat layihələrinin həyata keçirilməsinə, enerji layihələrinin inkişafına və ümumilikdə, infrastrukturun yaxşılaşdırılmasına yönəlmişdir. Bu səylər regionu bütün iştirakçı tərəflərə fayda verəcək qarşılıqlı əməkdaşlıq mərkəzinə çevirmək məqsədi daşıyır. Bundan əlavə, bu layihələr regionlararası əlaqələri gücləndirmək və perspektivli layihələr yaratmaq üçün yeni imkanlar açacaq.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# Ermənistan vaxtı uzatmaqla məşğuldur

**Ermənistanda Azərbaycanla münasibətlərin nizamlanmasında maraqlı olmayan, revanşist düşüncəsi ilə yaşayan, necə deyərlər, qisas niyyəti ilə alışıb yanan şəxslərin az-çox irəliləyiş prosesini dalana dirəmək istiqamətində fəaliyyətləri davam edir. Bu düşərgəyə mənsub olan şəxslər, demək olar ki, hər gün sosial şəbəkə hesablarında yeni açıqlamalarla çıxış edir, mövcud iqtidarı erməni xalqının gözündən salmağa çalışır, onu qorxaq, xain, satqın adlandırır, cəmiyyəti Nikol Paşinyan hökumətinə qarşı çıxmağa, Azərbaycanla əldə edilmiş razılaşmaları ləğv etməyə çağırırlar. Maraqlıdır ki, Ermənistanın əksər media orqanları onların çıxışlarını gen-bol tirajlayırlar. Həmçinin, bəzi jurnalislər özləri də Paşinyan iqtidarının siyasətini tənqid edən yazılar dərc etməkdə maraqlıdırlar.**



Bu düşərgənin aktivləşməsinə son vaxtlar baş verən bir sıra proseslər səbəb olub. Məsələn, Ermənistan parlamenti oktyabrın 23-də "Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə"ni təsdiq edib. Oktyabrın 24-də Kazanda keçirilən XVI BRICS Sammiti zamanı Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında görüş olub. Bundan bir gün sonra hər iki ölkədə həmin əsasnamələr yüksək səviyyədə təsdiqlənib. Bütün bunlar xəstə təfəkkürlü radikallar tərəfindən Ermənistanın Azərbaycana qarşı ciddi güzəştləri kimi interpretasiya edilərək ətalət içində olanları aktiv fəaliyyətə keçməyə sövq edib. Doğrudur, bizim üçün əsas məsələ Ermənistan hökumətinin mövqeyi və parlamentinin qərarlarıdır. Əgər Ermənistan hökuməti və parlamenti Azərbaycanla razılaşmaları təsdiq edirsə, müxalifətin nə deməsinin əhəmiyyəti yoxdur. Çünki müxalifət prosesə təsir edə bilmir. Amma günlərin birində hakimiyyət dəyişsə və müxalifət iqtidara gəlsə, Azərbaycanla razılaşmalardan imtina edə bilər.

Radikallar təkcə hökumətin səylərini heçə endirməyə çalışmaqla kifayətlənmirlər. Onlar erməniləri düz yola dəvət edən, konstruktiv fikir söyləyən hər kəsin, necə deyərlər, kölgəsini qılınclamaqla məşğuldurlar. Məsələn, parlamentdəki "Şərəfim var" fraksiyasının deputatı, qurumun müdafiə və təhlükəsizlik məsələləri daimi komissiyasının üzvü Tiqran Abramyan "Yerkrapa" könüllülər ittifaqının rəhbəri Sasun Mikaelyanın Ermənistanın Azərbaycana müqavimət göstərə bilməyəcəyi, buna görə də sərhədin delimitasiyasının və sülh bağlamağın zəruri olduğu barədə fikirlərini sərt şəkildə tənqid edib. Deputat sosial şəbəkə hesabında qeyd edib ki, hərbiləşdirilmiş strukturun rəhbərinin açıqlamaları Azərbaycanla sərhəddə xidmət edən əsgərlərin "döyüş ruhunu" sarsıdır və onlarda özlərinə inamsızlıq yaradır.

T.Abramyan deyib ki, S.Mikaelyan özünün rezonanslı bəyanatı ilə Ermənistan hakimiyyətinin müdafiənin gücləndirilməsi sahəsindəki fəaliyyətsizliyini və uğursuzluğunu etiraf edib: "Sanki o, rəhbərliyin təhlükəsizlik siyasətinin heç bir nəticə vermədiyini açıq-aydın bildirir". Bundan başqa, deputat bildirib ki, "Yerkrapa" rəhbərinin dediyi sözlər, ordunun gücləndirilməsi istiqamətində çox böyük səylər göstərildiyi barədə onun yoldaşlarının çoxsaylı bəyanatları ilə ziddiyyət təşkil edir.

Müxalifətçinin fikrincə, tabeliyində olan könüllülərin bu gün də ölkə sərhədlərinin mühafizəsini davam etdirdiyi şəxs müqavimətin mənasız olduğunu bəyan edir: "Belə olan təqdirdə bunu təslimolma ilə razılaşmaqdan başqa cür adlandırmaq mümkün deyil. Hesab edirəm ki, Paşinyanın yaxın müttəfiqi, əslində, bizi yeni kapitulyasiyaya çağırır".

Qeyd edək ki, "Yerkrapa" könüllülər ittifaqının rəhbəri S.Mikaelyan məlum açıqlamanı jurnalistlərə bazar günü – oktyabrın 27-də Ermənistan parlamentində 1999-cu ildə törədilmiş terror aktı zamanı həlak olanların xatirəsini yad etmək üçün "Yeraблur" qəbiristanlığında olarkən verib. Mikaelyan deyib: "Ermənistanın bu gün Azərbaycana uğurla müqavimət göstərmək imkanı yoxdur, məhz buna görə də sərhədlərin delimitasiyasına getmək lazımdır".

Bildirib ki, Azərbaycan 20 ildir müasir silah və hərbi texnika alır, Ermənistanda isə əvvəlki hakimiyyət talançılıqla, quldurluqla və qarətlə məşğul olub. O, keçmiş hakimiyyəti müdafiəni gücləndirmək məsələsində hərəkətsizlikdə ittiham edib. Mikaelyan hesab edir ki, qlobal dəyişikliklər kontekstində Ermənistan "yenidən soyqırımına məruz qalmamaq" (?) üçün rasional və müdrik olmalıdır.

Məlumat üçün bildirək ki, baş nazir Nikol Paşinyanın tərəfdarı olan Mikaelyan "Yerkrapa" könüllülər ittifaqına 2018-ci ildə Ermənistanda "məxməri inqilab" nəticəsində baş verən hakimiyyət dəyişikliyindən sonra rəhbərlik etməyə başlayıb. Birliyi 1999-cu il oktyabrın 27-də terror aktının qurbanlarından olan baş nazir Vazgen Sarkisyan yaradıb. Strukturun könüllüləri İkinci Qarabağ müharibəsində də iştirak ediblər. Onun 4 minə yaxın üzvü 9 istiqamətdə döyüşüb, 74 könüllü həlak olub, daha 113 nəfər yaralanıb. "Yerkrapa" üzvləri bu gün də Ermənistan sərhədinin mühafizəsini davam etdirirlər. Onlar Ermənistan sərhədinin 7 istiqamətində yerləşdiriliblər.

Bu arada açıqlanan rəqəmlərdə qeyd olunur ki, Ermənistanın hərbi xərcləri 2025-ci ildə ümumi daxili məhsulun 6 faizini təşkil edəcək ki, bu da 2024-cü illə müqayisədə 0,7 faiz çoxdur. Ölkənin maliyyə naziri Vahe Ovanisyan dünən parlament komissiyalarında büdcə dinləmələri zamanı deyib ki, ümumilikdə, müdafiəyə 1,7 milyard dollardan çox vəsait xərclənəcək. Bu isə hazırkı göstəricidən 20 faiz yüksəkdir.

Nazir onu da bildirib ki, əsaslı xərclərin 55,8 faizi müdafiə sənayesinin payına düşəcək. Ovanisyan müdafiə xərclərini dövlət büdcəsinin ən mühüm hissəsi adlandırıb. Onun sözlərinə görə, bu xərclər ölkənin bütün potensialını özündə cəmləşdirir və bu, təhlükəsizliyin möhkəmləndirilməsinə yönəldiləcək.

Bu istiqamətdə "The Times of India" qəzetinin yazdıqları da diqqəti cəlb edir. Məlumata görə, Ermənistan ABŞ və Fransa ilə birlikdə 2023–2024-cü maliyyə ilində Hindistanın müdafiə məhsullarının ən böyük idxalçıları sırasındadır. Nəşrin yazdığına görə, Ermənistan son 4 ildə Hindistanla raketlər, artilleriya qurğuları, raket sistemləri, radarlar, zirehlər və gecəgörmə cihazları, eləcə də geniş çeşiddə döyüş sursatları və artilleriya mərmiləri almaq üçün bir neçə müqaviləyə bağlayıb. Üstəlik, Ermənistan Hindistan istehsalı olan "Akaş" hava hücumundan müdafiə raketlərinin ilk xarici alıcısı olub. Bu müqavilələrin bəziləri Ermənistanla Azərbaycan arasında münaqişə zamanı imzalanıb. Qəzet yazır ki, Hindistanın dövlət və özəl şirkətləri 100-ə yaxın ölkəyə geniş çeşiddə silah, sursat və komponentlər ixrac edir. Ötən il ərzində satışı 2,6 milyard dollar təşkil edib.

**Politoloq Yeganə Hacıyeva** Ermənistanda Azərbaycanla sülhün tərəfdarı və əleyhdarları haqqında danışarkən bildirdi ki, hakimiyyət sülhün tərəfdarı olduğu görüntüsünü yaradır. XQ-yə açıqlama verən politoloqun sözlərinə görə, bu, Ermənistan hakimiyyətinə hazırkı dövrdə beynəlxalq müstəvidə müəyyən manevr imkanları yaradır: "Nikol Paşinyan göstərir ki, o və rəhbərlik etdiyi ölkə, guya, sülhpərvərdir. Paralel olaraq Ermənistan baş naziri Azərbaycana qarşı hüquqi, siyasi və sair müstəvilərdə iş aparır. Baxmayaraq ki, Paşinyan üzdə özünü sülhün tərəfdarı kimi göstərir. Qeyd etdiyim kimi, bu, Paşinyanın özünə, Ermənistan dövlətinə zaman qazanmaq üçün lazımdır. Çalışırlar ki, Ermənistanın adı ətrafındakı işğalçı reputasiyasını ləğv etsinlər. Paşinyan bununla göstərmək istəyir ki, guya, əslində, separatçıları dəstəkləyən və işğalı dəstəkləyən özündən əvvəlki hakimiyyətlər imiş. Göstərmək istəyir ki, özünün bu məsələlərə heç bir aidiyyatı yoxdur. Guya, müharibəni də heç o başlamayıb və sair və ilaxır".

Y.Hacıyeva qeyd etdi ki, paralel olaraq, istər hökumətdə, istər müxalifətdə, xüsusilə hər qrupun özünün dəstəklədiyi



media orqanlarında sülhün, Azərbaycanla münasibətlərin yaxşılaşdırılmasının əleyhinə bir kampaniya gedir. Məsələn, "xarici işlər naziri Ararat Mirzoyan sülhün tərəfdarıdırmı?" sualının konkret cavabı yoxdur. Çünki biz zaman-zaman ondan fərqli fikirləri eşidirik. Ümumiyyətlə, nə Ararat Mirzoyanda, nə Nikol Paşinyanda, nə də Qarabağ ermənilərinin nümayəndəsi olan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanda sabit mövqe yoxdur: "Onların mövqeyini "mövsümə uyğun mövqe" kimi qiymətləndirmək mümkündür. Yəni, sabit mövqeləri yoxdur. Həm sülh tərəfdarı, həm də əleyhdarı kimi çıxış edirlər. Bu mənada, "Mirzoyan Azərbaycanla münasibətlərin qurulmasda təşəbbüskardırmı və sülh istəyirmi?" sualına birmənalı cavabı yoxdur. Onlar tərəfdən müəyyən manipulyativ oyunlar var".

Politoloq onu da qeyd etdi ki, Ermənistan hakimiyyəti daxilində Qarabağın itirilməsi ilə barışmayan və revanşist düşüncələrlə yaşayan şəxslərin mövcudluğu bir faktdır. Onlar hələ hakimiyyətdə güclüdürlər. Bu səbəbdən sülhün əleyhinə olan bütün prosesləri körükləyirlər. Amma Ermənistan dövləti üzdə özünü sülh tərəfdarı kimi göstərir: "Paralel olaraq daxildəki qüvvələri xaricdən, necə deyərlər, qidalandıran qüvvələr var. Fransa qismində, ABŞ Konqresi daxilindəki erməni lobbisi qismində sülhün əleyhinə sistemli fəaliyyət göstərənlər var. Bu fəaliyyətin hədəfləri sadəcə, qısamüddətli deyil, həm də uzunmüddətlidir. Bunlar Azərbaycan əleyhinə gedən kifayət qədər ciddi proseslərdir".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** isə bildirdi ki, Ermənistan faktiki olaraq, vaxtı uzatmaqla məşğuldur. Düşünürlər ki, Azərbaycan yarımçıq sülh sazişinə imza ata bilər: "Bu məqsədlə, necə deyərlər, tutduqlarını buraxmırlar. Deyirlər ki, sülh sazişinin mətninin 80 faizi hazırdır və gə-



lin, bu şəkildə imzalayaq, qalan məsələləri sonra müzakirə edərik. Elə baş nazir Paşinyanın Kazandakı çıxışı da təxminən bu yöndə idi.

Amma Azərbaycanın mövqeyi bəllidir. Yəni, konstitusiyadan Azərbaycana ərazi iddiasını ehtiva edən bənd çıxarılmalıdır və referendum keçirilməlidir. Həmin bənd əsas qanundan yalnız referendum yolu, yəni xalqın səsi ilə çıxarılmalıdır. Çünki Paşinyan bu gün var, sabah olmaya da bilər. Günün birində onun yerinə gələn deyə bilər ki, Paşinyanın razılaşdığı məsələlərlə razı deyil. O zaman necə olacaq? Amma konstitusiyadan referendum yolu ilə Azərbaycana qarşı ərazi iddiasına əsas verən bənd çıxarılarsa, bu, erməni xalqının ümumi rəyi olacaq. Hakimiyyətə gələn şəxs də bunu dəyişə bilməyəcək. Həmçinin, yeni gələn şəxs Azərbaycana ərazi iddiasını ehtiva edən bəndi yenidən konstitusiyaya salmaqla bağlı təzədən referendum keçirəsi deyil. Ona görə də Azərbaycanın tələbi qüvvədə qalır".

E.Şahinoğlu qeyd etdi ki, Paşinyanın Zəngəzur dəhlizi ilə bağlı mövqeyi də dəyişməyib. Nikol yenə də Ermənistanın öz ərazisində yola nəzarət etmək istədiyini bildirir. Amma buna baxmayaraq, danışıqlar davam edir. Danışıqların davam etdirilməsi isə hər iki tərəf üçün faydalıdır.

*Səxavət HƏMİD*
*XQ*

# Birlik və vəhdətin qələbəsi



**(əvvəli 1-ci səhifədə)**

Qərb Gürcüstanın timsalında vaxtilə Cənubi Qafqazda uğradığı strateji məğlubiyyətini qəbul etmir, ən müxtəlif yollara əl atır və revanşa çalışırdı. O da məlumdur ki, Gürcüstan Qərbin rəngli inqilab dalğasının ilk məruz qaldığı ölkələrdən sayılır. 2004-cü ildə Mixeil Saakaşvilinin rəhbərliyi ilə həyata keçirilmiş inqilab uğur qazanmışdı. O vaxt proses dünyaya, son dərəcə, böyük səs-küylə təqdim edilmiş və elə fon yaradılmışdı ki, sanki Gürcüstan digər postsovet, xüsusən də Cənubi Qafqaz məkanı üçün presedentə çevriləcək. Bununla bağlı cəhdlər də olmuşdu. Zaman keçdikcə isə rəngli inqilab narrativinin arxasında heç də səmimi niyyətlərin dayanmadığı üzə çıxmışdı.

Ancaq burayadək Qərb Gürcüstan modeli anlayışının düşüncələrdə özünə kök salması üçün müəyyən əməli tədbirlər gerçəkləşdirmişdi. M.Saakaşvili ölkədə bir sıra sahələri nizama salmağı bacarmışdı. Bu bacarıq xaricdən gələn sistemli və davamlı maliyyə yatırımları sayəsində reallaşmışdı. Lakin zaman keçdikcə Qərb inqilabın nəticələrinin qorunması istiqamətində çətinliklərlə üzləşdi. El dilində deyildiyi kimi, "Quyuya su tökməklə sulanmaz!". Məsələn, gürcü polisinin əməkhaqqının davamlı şəkildə ABŞ Dövlət Departamentinin maliyyəsi hesabına ödənməsi mümkünsüz idi. Digər tərəfdən, xarici institutların Gürcüstanı ayrı-ayrı layihələr hesabına ayaqda saxlamaları da real iş sayıla bilməzdi.

Beləliklə, Qərb Cənubi Qafqaz ambisiyalarını gerçəkləşdirməyin çox məsrəfli olduğunu gördüyündən, geri addım atmağa başladı. Əslində, bu tendensiya onun təşəbbüsü ilə dünyanın müxtəlif yerlərində gerçəkləşmiş inqilabların xoşbəxt gələcək məntiqini də alt-üst edir. Məsələn, ərəb ölkələrindəki proseslərin cəmiyyətləri və dövlətləri saldığı acınacaqlı duruma diqqət yetirək. Liviyada Müəmmar Qəddafinin devrilməsindən sonra tam nizamsızlıq hökm sürdü ki, bunun ağır təsirləri indi də siravi liviyalıların çiyinlərindən asılıb. İnsanlar diktator kimi qiymətləndirilən Qəddafinin dövründəkindən qat-qat pis yaşayırlar. Ona görə ki, Qərb iğtişaş yaratdı, çevriliş gerçəkləşdirdi vəssalam! Sonra isə özünün gerçək dağıdıcı sifətini ortaya qoydu. Məlum oldu ki, inqilablar, tiranlara qarşı mübarizə və sair səs-küylü təqdimatlar mövqe və mənafe davasına mütərəqqi obraz qazandırmaq üçün ortaya atılmış saxtakarlıqdan başqa bir şey deyildir. Tam qətiyyətlə deyə bilərik ki, Gürcüstan saxtakarlığa imkan vermədi.

Qeyd edək ki, Qərbin Gürcüstanla bağlı geydiyi maska hələ 2008-ci ildə cırılmışdı. Yəni, dağıdıcı mahiyyəti həmin il üzə çıxmışdı. Söhbət Rusiya – Gürcüstan müharibəsindən gedir. Qərb M.Saakaşvili administrasiyasını, belə demək mümkünsə, əjdahanın ağzına atdı. Elə zənn etdi ki, müharibə ətrafında yaradacağı ajiotaj nəticəsində Moskvaya qarşı formalaşacaq sərt reaksiya həlledici rol oynayacaq. Amma ortaya tam əks nəticələr çıxdı ki, bu, böyük ölçüdə, Kremlin prinsipiallığı və qətiyyətinin nəticəsi kimi özünü göstərdi. Nəinki konfliktə səbəb Cənubi Osetiya və Abxaziya tamamilə əldən çıxdı, habelə Gürcüstanın bu bölgələrə aid olmayan hissələri də rus qoşunları tərəfindən ələ keçirildi. İş o yerə çatdı ki, ruslar paytaxt Tbilisinin 10 kilometrliyinədək gəldilər...

Əslində, Qərbin Gürcüstan inqilabı məhz 2008-ci ildə məğlubiyyətlə üzləşdi. Məlum olmuşdu ki, birincinin məqsədi heç də gürcü xalqının rifahını yüksəltmək, ölkənin ərazi bütövlüyünü və suverenliyini bərpa etmək, ədalətsizliyə son qoymaq deyilmiş. Başlıca məram regionu ələ keçirmək, Rusiyanın buradakı təsirini heçə endirmək, onu tamamilə sıxışdırmaq idi. Yeri gəlmişkən, bu niyyət indinin özündə də aktualdır və indi onun bir sıra məqamları barədə söz açacağıq.

*

Bəli, son bir ildə Qərbin Gürcüstanda reallaşdırmaq istədiyi mahiyyətcə 2004-cü il inqilabın yenidən təkrarlamağa hesablanmışdı, amma bu "plan" gerçəkləşmədi. Həm də ona görə ki, ölkə hakimiyyəti çevik davrandı, riskləri düzgün idarə etməyi bacardı. Əlbəttə, əvvəldə bildirdiyimiz kimi, Qərbin istəklərinin reallaşmasındakı ən böyük amil Gürcüstandakı xalq-hakimiyyət vəhdətidir. Bu vəhdətdə isə ölkədə yaşayan soydaşlarımızın aktiv mövqeyi xüsusi vurğulanmalıdır.

Nəzərə almaq lazımdır ki, Gürcüstan amili Azərbaycan üçün də son dərəcə vacibdir. Əvvəla, rəsmi Bakı ilə rəsmi Tbilisi arasında əməkdaşlıq yüksək səviyyədədir. Hər iki ölkə Cənubi Qafqaz üzrə mühüm layihələrin iştirakçılarıdır. İkincisi, Azərbaycan və Gürcüstan beynəlxalq arenada bir-birini tam dəstəkləyir, onlar arasında qarşılıqlı inam və etimad mühiti var. Buna və digər amillərə görə deyə bilərik ki, Gürcüstan Azərbaycan dövlətinin regional siyasət amplitudasında mühüm yeri tutur. Deməli, ölkədəki parlament seçkilərinin hakim "Gürcü Arzusu"nun qələbə ilə başa çatması həm də Bakı–Tbilisi münasibətlərinin möhkəmlənməsinə və inkişafına yönəlmiş siyasətə dəstəkdir. Heç şübhəsiz, Gürcüstanda yaşayan soydaşlarımız da məhz bu amili rəhbər tutublar.

Eyni zamanda, onu da vurğulamaq lazımdır ki, Gürcüstanda hakim partiyanın qalib gəlməsi regional sülhlə müharibə, ənənəvi və amoral dəyərlər arasında prinsipial seçimdir. Nəzərə alaq ki, Qərbin hazırkı yanaşma tərzi şantaj ritorikası üzərində qurulub. Heç şübhəsiz, Gürcüstanda hakimiyyət dəyişikliyi yaşansaydı, bu, regional layihələrə də öz mənfi təsirini göstərəcəkdi. Qərb çalışacaqdı ki, gürcü iqtidarının köməyi ilə Azərbaycana təsir imkanları qazansın. Gürcüstandakı soydaşlarımız özlərinin seçki mütəşəkkillikləri ilə bu kimi mənfi ssenariləri də sıradan çıxardılar. Yeri gəlmişkən, bildirək ki, ölkədə soydaşlarımızın sayı 300 mindir və onların yaşadıqları bütün regionlarda səs faizi yüksək olub. Soydaşlarımız hakim partiyanın ümumi səslərinin formalaşmasında 7-8 faiz səs payına malikdirlər. Ümumən, onlar özlərinin əhatəsinə görə fərqlənirlər. Həm seçki prosesinə, həm də, bütövlükdə, Gürcüstanın siyasi arenasına təsirləri var. Bu cəhət soydaşlarımızı vacib və hətta həlledici elektorata çevirir.

Bəli, Gürcüstandakı seçkilərin nəticələri Qərbin ölkədə yürütdüyü siyasətə və Cənubi Qafqazda ayrıcı xətlər yaratmaq niyyətinə böyük zərbə vurdu. Əminliklə deyə bilərik ki, həm soydaşlarımız, həm də Gürcüstanın digər vətəndaşları onun regionu parçalamaq və müharibə ocağına çevirmək siyasətininin qarşısını aldılar. Gürcüstan insanı savaşı, daxili qarşıdurmanı, milli-mənəvi dəyərlərin deqradasiyasını deyil, sülhü, inkişafı, ənənələrə və milli dəyərlərə sadiqliyi seçdi.

*

Onu da nəzərə alaq ki, Gürcüstandakı seçkinin nəticələri, eyni zamanda, Qərbin 2018-ci ildə Ermənistanda reallaşdırdığı inqilabın prioritetlik fazasını heçə endirdi. Hazırda Ermənistan, faktiki olaraq, təklənmiş duruma düşüb ki, bu da son dərəcə vacibdir. Hər halda, Qərbin erməni iqtidarı üzərindən regionda hansı oyunlar oynadığı hər kəsə yaxşı bəllidir və məsələnin üzərində dayanmağa ehtiyac var.

Əvvəldə də vurğuladığımız kimi, Qərb Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq istəyir. Ermənistan bunun həyata keçirilməsi yolunda mühüm alətdir. Ümumən, Qərb "Region region ölkələri üçündür!" şüarından kənardır. Yəni, onun məqsədi təkcə Rusiyanın rolunu heçə endirmək deyil, həmçinin İranı, Türkiyəni və nəhayət Azərbaycanı neytrallaşdırmaq, bölgədə bərabərtərəfli münasibətlərin formalaşmasını əngəlləməkdir.

Digər yandan, Qərb ənənəvi "Parçala, hömk sür!" siyasətinin Cənubi Qafqaza transformasiyasına çalışırdı. Gürcüstandakı seçkidə müxalifət uğur qazansaydı, Ermənistanla yanaşı, bu ölkə də həmin siyasətin alətinə çevriləcəkdi və nəticədə İrəvanın mövqeyi güclənəcəkdi. İrəvan isə Bakı ilə sülhdən yayınır və beləliklə, erməni avantürizminin regionda saxlanılmasına can atır. Avantürizm isə Qərbin Cənubi Qafqazda bölücülük yaratmaq niyyətlərinin mühüm vasitəsi qismində çıxış edir. Gürcü elektoratı düzgün seçim etməklə, həm də bu mənfi meyilə imkan vermədi. O ki qaldı, Ermənistana, az da olsa, ümid var ki, sonda bu ölkənin rəhbərliyinin təmsilçiləri özlərinin regiona mənsubluğunu dərk edəcəklər.

Ermənistan rəhbərliyi həm də ona görə reallığı dərk edəcək ki, indiyədək rəsmi İrəvanın bütün gedişləri uğursuz nəticələnib. Onun ilk dəfə 44 günlük müharibə ilə Cənubi Qafqazda güc nümayişi iflasa uğradı, ardınca isə lokal xarakterli antiterror tədbirləri Qarabağda erməni separatçılığını sıradan çıxarmaqla, Qərbin də bölgəyə təsir imkanlarını heçə endirdi. Qərb Azərbaycanın qətiyyəti ilə üzləşdi. İndi isə eyni qətiyyəti Gürcüstan göstərdi.

Düşünürük ki, qonşu ölkənin bu mövqeyi Gürcüstan və Azərbaycan xalqları arasındakı birliyi daha da möhkəmləndirəcək. Tarix də sübut edir ki, birlik və vəhdət şəraitində hər iki dövlət güclü olur və beynəlxalq səviyyədə öz maraq və mənafelərini daha mütəşəkkil şəkildə qoruya bilir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

**Replika**

**Bu ölkənin sonuncu dəfə nə zaman diplomatik normativlər, siyasi prinsiplər, ən azı mənəvi əndazələr çərçivəsində addım atdığını nəinki özləri bilmirlər, heç beynəlxalq aləmdə də eşidib, görən olmayıb. "Qaraçı qızını tərifləyən kimi" hər gün öz adlarına hansısa tarixi uğur yazdıqlarına baxmayaraq, hələ də normal dövlətçilik prinsipləri yoxdur. Oktyabrın 26-da Gürcüstanda keçirilən parlament seçkilərində onlar növbəti dəfə rüsvay oldular.**

Belə ki, seçkinin başa çatmasından dörd-beş saat sonra kütləvi informasiya vasitələri xəbər yaydılar ki, Ermənistanın baş naziri Nikol Paşinyan gürcü həmkarı İrakli Kobaxidzeni təbrik edib. O, "Gürcü Arzusu – Demokratik Gürcüstan" Partiyasının seçkilərdə qalib gəlməsi münasibətilə həmkarına təbrik məktubu ünvanlayıb. Paşinyan bildirib ki, Gürcüstanla əlaqələrin davamlı inkişafı Ermənistan hökumətinin xarici siyasət prioritetlərindən biridir. (Daha deməyib ki, ərazi iddialarımız öz yerində). İrəvanın dostları demiş, "Xub!"

Dövlət başçısının həmin məktubunun yayılmasından bir neçə saat sonra isə məlum oldu ki, Gürcüstanda keçirilən seçkiləri müşahidə etmək üçün bu qonşu ölkəyə göndərilmiş Ermənistan parlamentariləri seçkinin hazırlanmasında və səsvermə prosesində "çoxsaylı qanun pozuntuları müşahidə ediblər". Əvvəla, bu fakt o deməkdir ki, Nikol Paşinyan qanun pozuntuları ilə müşayiət olunmuş seçkilərin nəticəsini bəyənir və "saxta yolla" qalib gəlmiş siyasi lideri təbrik edir.

Bu nə dövlət, nə dövlətçilikdir? Bu nə idarəetmə, necə tabeçilikdir? Parlamentarilər dövlət başçısının mövqeyinə "bir qoz!" deyirlərsə, onda onların hansı qərarına, sözünə, imzasına inanmaq olar?

Bəs ermənilər Gürcüstanda nə deyiblər? Bu sualın cavabını "Kavkaz-uzel.eu/articles" saytında oxuduq. Orada bildirilir ki, Müstəqil Müşahidəçi koalisiyasını təmsil edən Ermənistandan olan müşahidəçilər Gürcüstanda keçirilən parlament seçkilərinin nəticələrinə "inamı sarsıdan" ciddi pozuntular olduğunu iddia edirlər. "Kavkaz-uzel.eu"nun yazdığına görə, oktyabrın 26-da Gürcüstan parlamentini seçmək üçün keçirilən səsvermə zamanı dairə seçki komissiyalarına pozuntularla bağlı 337 şikayət daxil olub. Kimlərinsə təşkil etdiyi hücumlar nəticəsində səsvermə prosesini işıqlandıran azı 25 jurnalist yaralanıb, müxalifət nümayəndələri və müşahidəçilər də hücuma məruz qalıblar. Qeyri-hökumət təşkilatları seçki məntəqələrinə baş verən bu hadisələrin araşdırılmasını tələb ediblər . Xatırladaq ki, bu iddialar hansısa Avropa və ya Asiya müşahidəçiləri deyil, məhz İrəvanın təmsilçiləri deyiblər. "Utanmasan oynamağa nə var ki?"

# Erməni müşahidəçilər "gül vurdular"

## *Onlar Nikol Paşinyanın dediklərini təkzib etdilər*



Bildirilir ki, Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisi və Məlumatlı Vətəndaşlar İttifaqının təmsilçiləri ilə birlikdə Müstəqil Müşahidəçi koalisiyası oktyabrın 25-dən Gürcüstanda keçirilən parlament seçkilərində müşahidə missiyası aparıb. Məlumatlı Vətəndaşlar İttifaqının koordinatoru Daniel İonnisyanın sosial şəbəkədəki səhifəsində qeyd etdiyi kimi, Koalisiya qeyd edir ki, seçkiqabağı təşviqat dövründə və seçki günü "missiya seçicilərin rüşvətxorluğu, onların iradə ifadəsinə inzibati təzyiqlər, habelə səsverməyə nəzarət etmək üçün seçicinin şəxsiyyət vəsiqələrindən istifadə edilməsi barədə çoxlu etibarlı məlumat əldə edib."





İkinci, axı beynəlxalq aləmdə hamı bilir ki, ermənilərin tarixi Azərbaycan torpaqlarında qurduqları "Ermənistan dövlətində" son otuz ildə bir dəfə də olsun, normal, dünya təcrübəsinə cavab verə biləcək seçki, referendum və ya hansısa demokratik tədbir keçirilməyib.

Bunlar parlamenti güllələbaran edib ondan çox deputatı öldürən xalqın, "dövlət"in təmsilçiləri deyilmi? Axı indiyədək Ermənistan parlamentinin deputatları neçə dəfə iclas zalında yumruq davasına çıxıblarsa, sayını dəqiq bilən yoxdur. Ölkənin var-dövlətinin talanması, işğal edilmiş Azərbaycan ərazilərinin təbii sərvətlərinin qarət edilməsi, xüsusən, beynəlxalq aləmdəki erməni diasporunun on illər boyu göndərdiyi sayı-hesabı bilinməyən ianələrin mənimsənilməsi uğrunda gedən mübarizədə "Qarabağ klanının" ( Robert Koçaryan və Serj Sarkisyanın timsalında) etdiyi seçki saxtakarlıqlarını bilməyən varmı?

Ona görə də erməni müşahidəçilərin Gürcüstandakı seçkilər haqqında söylədikləri iftiralar gülüncdür. Ən azı, ölkəsində parlament binası güllələbaran edilənlərin heç olmasa, qonşu ölkənin yanında dili qısa olmalıydı.

D.İonnisyan bildirib ki, "Gürcü Arzusu" partiyasının və seçki komissiyalarının nümayəndələrinin hərəkətləri şübhəli idi: "Səsvermə kabinələrinin forması və yeri, səsvermə binalarına kameraların quraşdırılması, eləcə də səsvermənin monitoringinin digər üsulları ilə bağlı yalan məlumatların yayılması buna sübutdur".

Qərəzli münasibət o yerə çatıb ki, ya Nikol Paşinyan öz təbrik məktubunu təkzib etməlidir (ondan nə desən, çıxar), ya da müşahidəçilər "qələt (səhv) elədiklərini" etiraf etməlidirlər. Bunların heç birinin baş verməsi də qəribə görünməyəcək. Çünki Ermənistan adlı dövlətin mövcudluğu daim bu qəbildən olan absurdluqlar, iyrəncliklər və həyasızlıqlarla dolu olub. Hələ bunlar nədir ki?..

***İttifaq MİRZƏBƏYLİ***

---

# Xarici səyyahlar Cəbrayıl və Füzulidə

**Belçika vətəndaşı Yves Bouvienin başçılıq etdiyi Böyük Britaniyanın "Piki Reels" klubunun 33 nəfərlik səyyahlar qrupu Cəbrayıl rayonu ərazisində yerləşən tarixi abidə – Xudafərin körpüsündə olub.**



Körpüsünün tarixi barədə, Ermənistan silahlı qüvvələrinin qədim yurd yerlərimizdə törətdiyi vəhşiliklər və cinayət izləri haqqında səyyahlara məlumat verilib.

*

Füzuli rayonuna gələn səyyahlar işğaldan azad edilən Kənd Horadiz ərazisində ANAMA-nın apardığı minatəmizləmə işləri ilə tanış olublar. Bildirilib ki, Kənd Horadizin ərazisində əsasən tankəleyhinə minalar basdırılıb. Axtarış zamanı ərazidə partlamamış digər silah-sursatlar da aşkarlanır.

Xarici səyyahlara erməni işğalı zamanı törədilən vandalizm, rayon ərazisində Azərbaycan dövlətinin həyata keçirdiyi quruculuq işləri barədə də ətraflı məlumat verilib.

Dünyanın əsas beynəlxalq səyahətçilər klublarının 2020–2024-cü illərdə Qarabağ və Şərqi Zəngəzura 11 səfəri təşkil olunub. Bu səfərlərdə, ümumilikdə, 50-dən artıq ölkədən 400-dən çox məşhur beynəlxalq səyahətçi iştirak edib.

***XQ***

# Gürcüstanda parlament seçkiləri və regional geosiyasət

**I MƏQALƏ**

## Seçki həssaslığı

Öncədən Gürcüstandakı parlament seçkilərinin, bütövlükdə, regional geosiyasət miqyasında əhəmiyyətinin olduğu vurğulanırdı. Cənubi Qafqaz uğrunda mübarizə aparan böyük geosiyasi güclər bu seçkiyə nüfuz kontekstində həlledici mərhələ kimi baxırdılar. Bu səbəbdən oktyabrın 26-sı Qərb və Rusiya üçün "Tbilisi savaşı"nın dönüş nöqtəsi kimi qiymətləndirilirdi.

Belə bir vəziyyətin yaranması rəsmi İrəvanın səbatsız və qeyri-müəyyən geosiyasi mövqe tutmasından qaynaqlanırdı. Ermənistan rəhbərliyi II Qarabağ müharibəsində aldığı ciddi məğlubiyyətdən sonra, qəti olaraq hansı geosiyasi paltformanı seçməli olduğunu müəyyənləşdirə bilməmişdir. O cümlədən, İrəvanın Qərbə geosiyasi reveransları regionu daha riskli vəziyyətə salmışdır. Bunlar avtomatik olaraq Gürcüstan faktorunu Cənubi Qafqaz üçün daha da aktuallaşdırmışdır.

Digər tərəfdən, Rusiya səbr və təmkinlə Cənubi Qafqazda siyasətini gücləndirmək kursunu seçmişdir. Doğrudur, hələlik Moskvanın Tbilisi ilə əlaqələri bərpa olunmamışdır, lakin tərəflər bir-birinə qarşı öncəki mərhələlərdən daha yumşaq olan fikirlər səsləndirirlər. Buna paralel olaraq, rəsmi Tbilisinin mövqeyindən qəzəblənən Qərb dalbadal Gürcüstana qarşı addımlar atmışdır. Nəticədə Qərb–Gürcüstan münasibətləri xeyli geriləmişdir.

Nəhayət, Azərbaycanın regionda oynadığı müsbət geosiyasi rolu kənara qoymaq olmaz. Rəsmi Bakı Gürcüstan rəhbərliyi ilə kifayət qədər konstruktiv münasibətlər formalaşdırmışdır və daim qonşu ölkənin müstəqilliyinin yanında olmuşdur. Azərbaycan Gürcüstanla strateji tərəfdaşlığı da yeni səviyyəyə yüksəltməkdədir. Bunların fonunda regional təhlükəsizlikdə Azərbaycan – Gürcüstan münasibətlərinin daha da aktuallaşdığı qənaəti alınır.

Qısa vurğuladığımız məqamlar Gürcüstandakı seçkiyə Qərbin, Rusiyanın, Azərbaycanın və Ermənistanın münasibətlərinin mahiyyətini anlamağa imkan verir. Burada yeganə aydın suretdə Gürcüstan dövlətçiliyinə, müstəqilliyinə müsbət münasibət göstərən dövlətin Azərbaycan olduğu məlum olur.

Qərbin öz tələbləri və şərtləri vardır. Məsələn, "Rusiya ilə əməkdaşlıq etmə, onun Cənubi Qafqazdan sıxışdırılıb çıxarılması üçün ikinci cəbhə aç" kimi şərt irəli sürdüyü məlumdur. Bu barədə Baş nazir İrakli Kobaxidze dəfələrlə açıq fikir bildirmişdir. Rusiyanın da öz şərtləri vardır. Məsələn, Abxaziya və Cənubi Osetiya Moskva üçün hələ də "müstəqil dövlətlərdir".

Ermənistan isə mövqeyi bəlli olmayan, qeyri-müəyyən siyasət yeridən, hərdəmxəyal addımlar atan etibarsız bir ölkə kimi davranır. İrəvanın fəaliyyəti elə səviyyədə və məzmundadır ki, heç bir halda Tbilisi ona etibar edə bilməz və fayda götürməz. Məsələ həm də onunla bağlıdır ki, Ermənistanın minimum təsir gücü belə yoxdur. Ona görə də indi Ermənistan regional məsələlərdə güc göstərə bilməyən risk mənbəyi kimi qalmaqdadır.



Beləliklə, parlament seçkilərinə qədər, demək olar ki, bu regionda marağı olan hər bir böyük dövlətin seçkinin nəticələrinə münasibəti aydın idi. Ancaq o da vardır ki, bütövlükdə, regional geosiyasətdə mürəkkəb və riskli dinamika mövcuddursa, Gürcüstandakı seçki tam sakit və qalmaqalsız keçə bilməzdi. Faktiki olaraq həm iqtidar, həm də müxalifət qalib olacağını bəyan edir və əks halda ciddi etiraz fəaliyyəti olacağını bildirirdi. Bu o demək idi ki, istənilən nəticədə Gürcüstanda sosial, siyasi və ictimai vəziyyət mürəkkəbləşmə riski ilə üz-üzə qala bilər.

Seçkidən sonra baş verən hadisələr bu proqnozu təsdiqləyir. Lakin Mərkəzi Seçki Komissiyasının (MSK) nəticələri inamla elan etməsi fərqli mühit yaradır. Məsələ ondan ibarətdir ki, rəsmi olaraq "Gürcü Arzusu – Demokratik Gürcüstan"ın 54, 08 faiz, birləşmiş müxalifətin isə 37,5 faiz səs topladığı haqqında informasiya yayılmışdır. Azərbaycan Prezidenti İlham Əliyev Baş nazir İrakli Kobaxidzeni təbrik etmiş və onu Azərbaycana səfərə dəvət etmişdir.

Rusiyadan müsbət münasibət ifadə edilmişdir. Yayılan informasiyalara görə, ATƏT prinsipcə seçkinin nəticələrini tanımışdır, lakin, eyni zamanda, bir sıra nöqsanlara da işarə vermişdir. Ancaq seçkiləri müşahidə edən təşkilatların Avropa şəbəkəsinin (ENEMO) sədri Zlatko Vuyeviç seçkidə "şəffaflıq və bərabərlik pozulmuşdur" kimi bəyanat vermişdir. Bunu o, "seçki prosesinin demokratik xarakterinin əhəmiyyətli dərəcədə pozulması" kimi qiymətləndirmişdir.

Bütün bunlar Gürcüstandakı parlament seçkilərinin regional konteksti ilə bağlı müəyyən fikirlər yürütməyə imkan verir.

## Təhlükəli və riskli Qərb

Gürcüstan üçün, sözün həqiqi mənasında, indi təhlükəli tərəf Qərbdir. ABŞ və Avropa İttifaqı uduzmağını qəbul etməyəcək. Bu da avtomatik olaraq Gürcüstanda etiraz aksiyalarına və radikal davranışlara yol aça bilər. Məsələ onunla bağlıdır ki, seçkilər şəffaf və obyektiv keçmişdir və həqiqi mənada "Gürcü Arzusu" qalib gəlmişdir. Bu baxımdan iqtidar partiyası da əldə etdiyi nailiyyətin üstündən xətt çəkməz. Gözlənilməz ki, ölkədə qarşıdurma kəskinləşsin.

Ancaq Baş nazir İrakli Kobaxidze bəyan etmişdir ki, müxalifətin elə bir ciddi sosial bazası yoxdur. Buna görə də hər hansı ciddi risk mövcud deyildir. Bunun belə olmasını ilk arzulayanlar sırasında Azərbaycan da vardır. Bundan başqa, azərbaycanlıların kompakt yaşadığı bölgələrdə "Gürcü Arzusu"na seçicilərin 75 faizdən çoxu səs vermişdir. Bununla soydaşlarımızın daim Gürcüstanın müstəqilliyi və təhlükəsizliyinin yanında olduğu bir daha təsdiqlənmişdir. İndi əhali Gürcüstan hökumətinin azərbaycanlıların yaşadıqları bölgələrdə sosial-iqtisadi problemlərə daha çox diqqət yetirəcəyini gözləyir.

Bununla yanaşı, Gürcüstana ola biləcək təzyiqləri unutmaq olmaz. O cümlədən, müəyyən dairələr gürcülərlə qeyri-gürcü xalqları arasında nifaq salmağa cəhd edə bilərlər. Bu bədbin proqnoz üçün müəyyən əsas vardır.

Qərbin müəyyən dairələri həm dini, həm də siyasi faktordan istifadə edib, Gürcüstanda sabitliyi poza bilərlər ki, seçkinin nəticələri şübhə altına alınsın. Bunun üçün onların çəkinməyəcəyini təxmin etmək olar. Təcrübə göstərir ki, Qərbin siyasi dairələri geosiyasi məsələlərdə güzəştə getməyi və reallıqla barışmağı sevmirlər.

Digər tərəfdən, Ukrayna cəbhəsində proseslərin Rusiyanın xeyrinə dəyişməsi Qərbin Qafqaz istiqamətində radikal addımlar atmağa meyillənməsinə səbəb ola bilər. Çünki Qafqazda Moskva üçün problemlər yarada bilsələr, Ukraynada Rusiyanın təzyiqlərini azalda bilərlər.

Burada Qərbin Ermənistandan istifadə edə biləcəyi ehtimalı az deyildir. Görünür, bir qədər əvvəl Qərbin müəyyən təşkilatlarını Gürcüstandan Ermənistana köçürməsi də hardasa bu kimi məqsədlərdən xəbər verir.

Bütün bu ehtimalların fonunda Baş nazir İ.Kobaxidzenin seçkidən sonra verdiyi bəyanatlar maraqlı görünür. O, Rusiya ilə diplomatik münasibətlərin yarana biləcəyi ehtimalını yüksək qiymətləndirmədiyini və Moskvanın Gürcüstanın iki regionunu işğal altında saxlamaqda davam etdiyini ifadə etmişdir. Belə görünür ki, rəsmi Tbilisinin yaxın zamanlarda Rusiyaya tərəf ciddi reverans etmək niyyəti yoxdur.

Bununla yanaşı, İ.Kobaxidze hələ də əsas istiqamətin Avropa İttifaqına üzvlükdən ibarət olduğunu vurğulamaqla bir qədər qəribə təsir bağışlamışdır. O, Rusiya ilə diplomatik əlaqələrə "Yox!Yox!Yox!" deyə cavab vermişdirsə də, ardınca "bizim əsas xarici siyasət prioritetimiz Avropa İttifaqına inteqrasiyadır", – demişdir.

Ancaq faktdır ki, hazırda Qərblə Gürcüstanın münasibətləri çox soyuqdur. ABŞ və Aİ, faktiki olaraq, rəsmi Tbilisi ilə təmasları dondurmuşlar. Gürcüstanın Aİ-yə inteqrasiyası prosesi dayanmışdır. Belə vəziyyətdə rəsmi Tbilisinin vəziyyəti necə düzəldə biləcəyi müəmmalıdır.

Digər tərəfdən, başda ABŞ olmaqla, kollektiv Qərb Azərbaycana da təzyiq etməyə çalışır. Aydın görünür ki, Vaşinqton və Brüssel səmimi, ədalətli və obyektiv deyildir. Onun öz şəxsi maraqlarını yeritməkdən başqa dərdi yoxdur. Buna görə də Ermənistanı müdafiə edirlər və regionda təhlükəsizliyə riskləri artırırlar.

Faktiki olaraq ziddiyyət alınır. Qərb regionda Gürcüstanın strateji tərəfdaşına qarşı qərəzli və mənfi mövqe tutursa, Gürcüstanın özünə necə müsbət yanaşa bilər? Bu o halda ola bilər ki, Gürcüstan da Azərbaycanla münasibətlərinə yenidən Qərbin maraqları prizmasında baxsın. Bu isə faktiki olaraq Tbilisinin öz müstəqilliyindən imtina etməsi deməkdir. Hazırkı Gürcüstan hökumətinin buna gedəcəyini ehtimal etmirik. Ancaq burada digər bir təhlükəli məqam da ortaya çıxa bilər.

## Ermənistanın mövqeyi

Ermənilərin kompakt yaşadığı Cavaxetiyada erməni informasiya mənbələrinin məlumatına görə, seçicilərin 80 faizindən çoxu "Gürcü Arzusu"na səs vermişdir. Lakin politoloqlar hesab edirlər ki, bu, rəsmi İrəvanın mövqeyi deyildir. Çünki Ermənistan rəhbərliyi hazırda daha çox Qərbin təsiri altındadır. Cavaxetiya məsələsi isə sadəcə erməni əhalinin təhlükəsizliyi ilə bağlı izah oluna bilər. Məsələ ondan ibarətdir ki, II Qarabağ müharibəsindən sonra Gürcüstanda yaşayan ermənilər İrəvanın dəstəyinə ümid etmirlər. Həmin səbəbdən özlərini sakit aparmağa çalışırlar – onların əvvəlki özündənrazılıqlarından əsər-əlamət qalmamışdır.

Belə alınır ki, Cavaxetiya məsələsi Ermənistanın Gürcüstana real münasibətini əks etdirmir. Bu qənaəti həm də Qərbin öz təşkilatlarını Ermənistana köçürməsi təsdiq edir. Deməli, lazım olduğu zaman həmin təşkilatlar anti-Gürcüstan fəaliyyətlərini genişləndirə bilərlər. Yəni, Gürcüstana real təhlükələr həm də Ermənistan tərəfdən gələ bilər. Burada müxtəlif təxribatlar və təzyiq üsulları istisna edilmir.

Eyni zamanda, Ermənistan tərəfindən ola biləcək təhlükələrin Gürcüstana ciddi başağrısı yaradacağını da düşünmək əsassızdır. Bunun əsas səbəbi Gürcüstanın Azərbaycan kimi etibarlı strateji tərəfdaşının olmasıdır. Konkret ifadə etsək, Azərbaycan – Gürcüstan tandemi regionda müxtəlif istiqamətlərdən gözlənilən təhlükələri neytrallaşdırmaq gücündədir. Bu məqam regionda yeni təhlükəsizlik konfiqurasiyasının yaranmaqda olduğunu əks etdirir. Onun prizmasında Gürcüstanda parlament seçkisinin başqa və daha maraqlı aspektlərinə baxa bilərik.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Qonşu ölkədə yaşayan soydaşlarımız sülh və əməkdaşlığa səs verdilər

**Gürcüstanda neçə vaxtdan bəri həyəcanla gözlənilən 26 oktyabr parlament seçkiləri başa çatıb və artıq ölkənin Mərkəzi Seçki Komissiyası nəticələri elan edib. MSK 27 oktyabr saat 17:00-a olan vəziyyətə görə, 3 min 111 seçki məntəqəsindən 3 min 109-nun (99.936 faiz) sayıldığını açıqlayıb. Qalan iki məntəqədən birində – 69 saylı seçki məntəqəsində nəticələr ləğv edilib, Duşetidəki bir məntəqədən isə protokol göndərilməyib.**

MSK-nın elan olunan son nəticələrə görə, parlamentə daxil olmaq üçün 5 faizlik baryeri keçmiş siyasi partiyaların qazandıqları səslərin sayı və faiz göstəriciləri aşağıdakı kimidir: Hakim "Gürcü Arzusu–Demokratik Gürcüstan" – 1 milyon 118 min 796 səs (53.93 faiz), "Dəyişikliklər Koalisiyası" – 228 min 821 səs (11.03 faiz), "Birlik – Milli Hərəkat" – 210 min 787 səs (10.161 faiz), "Güclü Gürcüstan – Lelo, Xalq üçün, Azadlıq üçün!" – 182 min 839 səs (8.814 faiz), "Qaxaria Gürcüstan üçün" – 161 min 215 səs (7.771 faiz). Seçkiyə qatılmış 18 partiyadan 13-ü isə müvafiq baryeri keçə bilmədiyi üçün parlamentə düşə bilməyib.

Seçkidə ölkədə fəaliyyət göstərən 18 partiyanın iştirakının müsbət hal olması səsvermə prosesini izləyən ATƏT Parlament Assambleyasının nümayəndə heyəti tərəfindən də xüsusi qeyd edilib. Beynəlxalq qurumun təmsilçiləri Tbilisidə keçirdikləri mətbuat konfransında bəyan ediblər ki, Gürcüstanda parlament seçkiləri rəqabətli olub, seçkilərdə 18 siyasi partiya iştirak edib.

ATƏT PA nümayəndə heyətinin rəhbəri Pia Kauma deyib: "Bu parlament seçkiləri rəqabətli olub, ona görə ki, seçicilər 18 seçki subyekti arasında seçim etmək imkanına malik olublar. Bu, iqtidarla müxalifət arasında seçki deyildi. Müxalifət partiyalarının özləri arasında da fəal rəqabət var idi".

İlkin nəticələr bəlli olduqdan sonra "Gürcü Arzusu"nun fəxri sədri Bidzina İvanişvili partiyasının mərkəzi qərargahının önündə qurulmuş səhnədən xalqa müraciət edərək, bütün Gürcüstana və seçicilərə dərin təşəkkürünü bildirib: "Onlar artıq dördüncü seçkilərdir ki, belə səmimiyyət və sədaqətlə bizi dəstəkləyirlər. Dünyada nadir hallarda belə hal baş verir ki, bu qədər mürəkkəb vəziyyətdə bu cür böyük uğurlar əldə edilir. Bu, gürcü xalqının özünəməxsusluğunun göstəricisidir. Sizi əmin edirəm ki, ölkəmiz növbəti dörd il ərzində böyük nailiyyətlərə imza atacaq".

İvanişvili təmsil etdiyi partiyanın artıq "zəmanətli, böyük üstünlük ilə inandırıcı qələbəyə sahib" olduğunu, bunu seçkilərin nəticəsinin də sübut etdiyini bildirib.

"Gürcü Arzusu"nun seçki qərargahının rəhbəri, baş nazir İrakli Kobaxidze keçirdiyi brifinqdə müxalifətin, ümumiyyətlə heç bir resursunun olmadığını, parlamentin ilk iclasının adi qaydada keçiriləcəyini, hökumətin təsdiq olunacağını bəyan edib: "İlk dəfədir ki, müxalifət nümayəndələri Mərkəzi Seçki Komissiyasının binasına hücum etməyə cəsarət etməyiblər. Bunun sadə bir səbəbi var – qələbə o qədər təsirli və açıqdır ki, o cümlədən, elektron seçkilər və misilsiz seçkiqabağı mühit şəraitində seçkilərin manipulyasiyasından danışmağa ehtiyac qalmır".

Kobaxidzenini sözlərinə görə, hökumət yeni ildən ABŞ və Avropa İttifaqı ilə münasibətləri yenidən normallaşdırmağa başlayacaq.

Baş nazir dünən hökumətin ilk iclasını keçirərkən bildirib ki, müxalifət məğlubiyyətlə barışa bilmir. Hətta ATƏT-in müşahidə missiyasına açıq şəkildə qarşı çıxır, çünki yekun hesabat onların xoşlarına gəlməyib: "Mən müşahidə etdim ki, müxalifət kanalları müvafiq mətbuat konfransını yarıda dayandırdılar. Çünki onlar seçkilərlə bağlı müsbət qiymətləndirmədən olduqca narazı qaldılar".



Gürcüstanda keçirilən seçkilərdə azərbaycanlılar, həmişə olduğu kimi, yenə də fəal iştirak ediblər. Bunu müşahidə edən bir çox gürcü və azərbaycanlı ekspertlər bildirirlər ki, bu fəallıq və onların həlledici rolu yalnız seçkilərin nəticələrinə deyil, həm də Gürcüstanın gələcək siyasi və regional siyasətinə müsbət təsir edir. Gürcüstanda yaşayan soydaşlarımızın sayı təxminən 300 min nəfər hesablanır və onlar yaşadıqları bölgələrdə yüksək seçici fəallığı nümayiş etdirərək ölkənin ümumi siyasi mənzərəsinə mühüm töhfələr veriblər.

Gürcüstandan aldığımız son məlumatlara görə, azərbaycanlı seçicilər əsasən "Gürcü Arzusu" partiyasına səs verməklə, ölkədə sabitliyin və ənənəvi milli-mənəvi dəyərlərin qorunmasında əhəmiyyətli rol oynayıblar. Azərbaycanlı seçicilərin hakim partiyaya verdikləri səslər bu siyasi təşkilatın qazandığı ümumi səslərin 7-8 faizini təşkil edir ki, bu, mühüm göstərici kimi diqqət çəkir. Soydaşlarımız ölkədə bir sıra müxalifət partiyalarının yürütdüyü Qərbpərəst siyasətə səs verməyərək, Gürcüstanda sülh və sabitliyin davamlı olmasına dəstək veriblər.

Hakim partiyanın azərbaycanlıların yaşadığı regionlarda qazandığı səslərin göstəricisi aşağıdakı kimidir: Marneuli 79,54 faiz, Bolnisi 80,71 faiz, Dmanisi 76,43 faiz, Qardabani 70,83 faiz, Zalqa 69,35 faiz, Tetriskaro (Ağbulaq) 68,65 faiz.

"Gürcü Arzusu"nun namizədi Savalan Mirzəyev bildirib ki, yaşadığı Qardabani rayonunda seçkilər sakit və dinc formada keçib, heç bir qanun pozuntusuna yol verilməyib.

"Gürcü Arzusu" partiyasından deputat seçilmiş David Şerazadişvili deyib ki, gürcü xalqı düzgün seçim edib. Gürcüstanda istər seçkilərin təşkili, istər təbliğat məsələsində, istərsə də səsvermənin gedişində nəticələrə ciddi şəkildə təsir edən qanun pozuntusu qeydə alınmayıb. O, Gürcüstanda ilk dəfə proporsional seçki sistemi üzrə keçirilən seçkilərin Gürcüstanın milli maraqlarına tam uyğun gəldiyini, ölkənin gələcəyinə müsbət təsir göstərəcəyinə ümidvar olduğunu ifadə edib: "Gürcü xalqı düzgün seçim etdi və öz xoşbəxt gələcəyinə səs verdi. Gürcüstan hökuməti və xalqı Avropaya inteqrasiya yolunu tutub. Bu istiqamətdə yeni ildən ciddi addımlar atılacaq".

O, Gürcüstanda yaşayan azərbaycanlıların da yüksək siyasi fəallıq göstərərək gürcü xalqının, "Gürcü Arzusu"nun yanında olduğunu, sülh və əməkdaşlıq partiyasına səs verdiyini qeyd edib.

"Soydaş" İctimai Birliyinin sədri, politoloq Kamran Ramazanlı da qəzetimizə açıqlamasında Gürcüstanda yaşayan azərbaycanlıların səsvermədə fəallıq göstərməsindən məmnunluğu duyduğunu qeyd etdi. Onun sözlərinə görə, soydaşlarımızın yaşadıqları Marneuli, Bolnisi, Dmanisi, Qardabani və digər rayonlarda səsvermə mütəşəkkil, sakit və demokratik keçib. Azərbaycanlı seçicilər də Gürcüstanın ictimai siyasi həyatında mühüm hadisə olan bu seçkilərdə fəal iştirak etməklə, xüsusən hakim partiyanı dəstəkləməklə müharibə partiyasına, amoral dəyərlərə deyil, sülhə əmin-amanlığa, inkişafa səsə veriblər: "Ümumilikdə Gürcüstan xalqı, eləcə də azərbaycanlılar müharibəyə, daxili qarşıdurmaya, milli-mənəvi dəyərlərin deqradasiyasına deyil, sülhə, inkişafa, ənənələrə və milli dəyərlərin təntənəsinə səs verdilər. Gürcüstandakı soydaşlarımıza təşəkkür edirik ki, onlar Azərbaycan dövlətinin və Prezidentinin regional siyasətini, Azərbaycan–Gürcüstan münasibətlərinin möhkəmlənməsi və inkişafına yönəlmiş səyləri dəstəklədilər.

Gürcüstanda yaşayan azərbaycanlılar hökumətdən həyat şəraitlərinin yaxşılaşdırılması, sosial və iqtisadi hüquqlarının qorunması istiqamətində daha fəal addımların atılmasını gözləyirlər. Ümid edirik ki, Gürcüstan hakimiyyəti bundan sonra bu məsələlərə daha həssas yanaşacaq və azərbaycanlıların ölkədəki mövqelərini gücləndirmək üçün əlavə addımlar atacaq".

***Paşa ƏMİRCANOV***
***XQ***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Sumqayıtda

**Oktyabrın 28-də Sumqayıt Reabilitasiya Mərkəzinin təşkilatçılığı ilə 8 Noyabr Zəfər Gününə həsr olunmuş "Ülviyyət" adlı tədbir keçirilib.**



Sumqayıt Şəhər Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib. O, tədbirdə sərgilənən müxtəlif sənət əsərləri ilə yaxından tanış olub. Sərgidə rəssamlıq, daş tozundan fiqurların tökülməsi, ağac üzərində bədii oyma, toxuculuq və digər sənət növləri üzrə əl işləri nümayiş olunub.

Tədbir çərçivəsində, həmçinin şəhid ailəsi üzvlərinin əl işlərindən ibarət



kulinariya sərgisi də təşkil edilib. Şəhid övladlarından ibarət "Zəfər sədası" xor qrupunun ifasında səslənən Vətənə həsr olunmuş mahnılar tədbirə xüsusi ab-hava qatıb.

Sonda Sumqayıt Reabilitasiya Mərkəzinin əməkdaşları və sağlamlıq imkanları məhdud şəxslər birgə türk rəqsi ifa ediblər. Qarabağ müharibəsi qazisi və Sumqayıt Reabilitasiya Mərkəzinin əməkdaşının inklüziv rəqsi də iştirakçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

*XQ*

# İrəvanın "gizli revanşizmi"



(əvvəli 1-ci səhifədə)

Məsələ ondadır ki, Azərbaycan işğala son qoyduqdan, lokal xarakterli antiterror tədbirləri ilə özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Ermənistanın xarici siyasətində ayrıca vektor yaranıb. Bu vektorun təsiri ölkənin beynəlxalq məhkəmələrə müraciətlərinin motivinə də təsir göstərib. Belə ki, rəsmi İrəvan hər vəchlə çalışır ki, işğaldan azad edilmiş ərazilərimizdə hansısa abidənin erməni mirası kimi təsdiqlənməsinə nail olsun. İlk baxışdan, bunlar başıpozuqluq və şizofreniya əlamətidir. Ancaq nəzərə alsaq ki, qonşu ölkələrə təcavüz məntiqi tipik erməni xislətinin zay məhsuluna çevrilmiş sağalmaz xəstəlikdir, deməli, Ermənistan rəhbərliyinin hazırkı miras oyunu da eyni xaraktera malikdir. İzah edək necə?

Erməni beyin mərkəzləri hesab edirlər ki, tutalım Ağdamdakı, yaxud Zəngilandakı və ya hansısa başqa bölgəmizdəki hər hansı abidənin beynəlxalq səviyyədə erməni mirası kimi təsdiqlənməsinə, mövcud istiqamətdə hüquqi əhəmiyyətə malik qərar və qətnamələrin çıxarılmasına müyəssər olsalar, bu amil gələcəkdə ərazi iddiası üçün əsas formalaşdıracaq. Ortaya, təxminən, belə bir məsələ çıxacaq... Bir halda ki, torpaq üzərindəki abidə ermənilərə məxsusdur, deməli, həmin torpağın da onlara aidliyini demək mümkündür. Yəni, rəsmi İrəvan sərsəmliyin və avantürizmin yedəyindədir. Heç şübhəsiz ki, bu, gələcəyə hesablanmış "plandır". Erməni "düşüncə strateqləri"nin fikrincə, nə zamansa, ölkələri güc toplasa və yenidən işğala girişsə, miras məsələsi bu niyyətə hüquqi don geyindirmək üçün lazımlı duruma gələcək. Onlar həmin durum üçün bazanı indidən formalaşdırmağa çalışırlar. Deməli, rəsmi İrəvan revanşizmə can atır. Amma bunu, öz aləmində gizli edir. Məşhur el məsələsində deyildiyi kimi, "Dəvəquşu başını quma soxur, elə zənn edir əndamı görünmür".

Əlbəttə, indiki məqamda haqqında bəhs etdiyimiz gülünc gündəm formalaşdırmaq Azərbaycan – Ermənistan sülhünə, ölkələr arasında barış mühitinin yaranmasına zərbə olmaqla yanaşı, etimad quruculuğu tədbirlərinə də xələl gətirir. Şübhəsiz ki, rəsmi İrəvan bu məqamı düşünməmiş deyil. Yəni, Ermənistan XİN rəhbərinin müavini V.Kostanyanın dilə gətirdikləri heç də adi məsələ sayıla bilməz.

Nazir müavini, Qarabağ üzərinə köklənərək bildirir ki, guya, bölgənin erməni irsi məhv və ya təhrif təhlükəsi ilə üz-üzədir. O, ardınca daha fərqli tərzdə sərsəmləyib. Qeyd edir ki, dünyada mədəni irsə hücumlar, mədəni kimliyin inkarı münaqişələri qızışdırmaq və beynəlxalq sabitliyi pozmaq üçün alət kimi istifadə olunur. Deməli, belə çıxır ki, Azərbaycan, guya, erməni irsinə zərər vurmaqla, qızışdırıcı mövqe tutur. Göründüyü kimi, Kostanyan fikirləri ilə cəfəngiyyatın kökünə enir. Adam otuz ilə yaxın davam etmiş işğalın Azərbaycan xalqında nə qədər ağır mənəvi yaralar açması reallığını düşünmür, faktiki olaraq, beynəlxalq hüquqla və başarı dəyərlərlə aşkar manipulyasiya yolu tutur.

Bu yerdə Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın bir müddət əvvəl erməni jurnalistin Azərbaycanın Qarabağın erməni mirasına təcavüzü xüsusundakı həyasız sualına cavabı zamanı dilə gətirdiyi bir cümləni xatırladaq: "Mən başa düşdüyüm qədər, söhbət Azərbaycanın ərazisindən gedir və ölkənin öz qanunları var".

Bəli, başarı prinsiplərlə manipulyasiya Ermənistan hakimiyyətinin köhnə şakəridir. Yəni, V.Kostanyan fikirləri ilə heç də yenilik etmir, ənənəvi erməni həyasızlığını bir daha ortaya qoyur. Həyasızlıq həm də ondadır ki, onun təmsil etdiyi ölkə otuz illik işğal dövründə Azərbaycanın mədəni irsini nəinki dağıdıb, eyni zamanda, ən ağlasığmaz şəkildə təhqirə məruz qoyub. Kostanyan barbar təfəkkürlü qövmün və həmin qövmün zəlzələdən, ya vəlvədən yaranmış dövlət adlı qurama strukturunun nümayəndəsi olduğunu unutmamalıdır. Ancaq unudur və açıq tekstlə ölkəmiz əleyhinə hədyanlar yağdırır, Beynəlxalq Ədalət Məhkəməsinin yurisdiksiyasına interpretativ yanaşır.

Necə deyərlər, "İt hürər, karvan keçər". Yəni, kostanyanların, mirzoyonların, lap elə paşinyanların sərsəmləmələrinin Azərbaycana zərrə qədər təsiri yoxdur. Ancaq vurğuladıq ki, onların dilə gətirdikləri hər bir cəfəng fikrin, bütövlükdə, Cənubi Qafqaz platformasındakı sülh quruculuğuna ciddi ziyanı var. Sülhün təmin olunmadığı mühitdən ən böyük ziyanı isə Ermənistanın görəcəyi və hazırda da gördüyü birmənalıdır. Ona görə də erməni rəsmiləri dillərini sakit saxlamağın vacibliyini nə qədər tez anlasalar, bir o qədər yaxşı olar! Amma o da aydın görünür ki, onlar düzələn deyillər və hər ötən gün buna əminliyimiz bir qədər də möhkəmlənir.

***Ə.RÜSTƏMOV***
***XQ***



**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Şanlı Vətən müharibəsi otuzillik işğala son qoyan parlaq Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası: 29 oktyabr



• Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum cəhdlərinin qarşısı qətiyyətlə alınıb. Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti xeyli itki verərək geri çəkilməyə məcbur edilib. İşğalçı ordunun iki T-72 tankı, iki BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 14 müxtəlif tipli topu, bir neçə dayaq məntəqəsi və altı avtomobil texnikası sıradan çıxarılıb. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

• Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad olunan Qiyaslı və Sarıyataq kəndlərinin videogörüntülərini yayıb.

• Ermənistan ordusunun yüksəkrütbəli bir neçə zabiti məhv edilib. Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilib: "Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində bölmələrimizin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub.

Dünən gün ərzində düşmənin bir neçə istiqamətdə hücum etmək cəhdinin qarşısı qətiyyətlə alınıb. Döyüş texnikası və canlı qüvvə sarıdan xeyli sayda itki verən düşmən geri çəkilib.

Görülən cavab tədbirləri nəticəsində düşmənin 1-ci ümumqoşun ordusu komandanının müavini polkovnik Artur Sarqisyan və 18-ci motoatıcı diviziyanın rabitə rəisi mayor Aram Ğazaryan məhv edilib. Bundan əlavə, 1-ci ümumqoşun ordunun artilleriya idarəsinin zabiti polkovnik-leytenant B.Aseryan, 2-ci motoatıcı alayın komandiri Hunan Hayrumyan yaralanıb və 5-ci dağatıcı alayın 3-cü taborunun komandir müavini Roman Tunyan isə itkin düşüb.

• Müdafiə Nazirliyi düşmənin döyüş meydanında atıb qaçdığı hərbi sursatın, zirehli texnikanın və avtomobillərin videogörüntüsünü paylaşıb.

Azərbaycan Ordusunun endirdiyi zərbələr nəticəsində Ermənistan silahlı qüvvələrinin bölmələri geri çəkilməyə məcbur edilir. Düşmən xeyli itki verir, onun döyüş texnikası sıradan çıxarılır. Ermənistanın hərbi rəhbərliyi də artıq buraxdıqları səhvləri etiraf etmək məcburiyyətində qalıb. Onlar düşdükləri ağır vəziyyətlə barışmağa məcburdurlar.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Ordusu torpaqlarımızı azad etdikcə düşmənin xeyli sayda silah-sursatı qənimət kimi götürüb. Beynəlxalq humanitar hüquq normalarını kobudcasına pozan Ermənistan silahlı qüvvələri dinc sakinləri və mülki infrastrukturu hədəfə alır.

Azərbaycan Ordusunun qarşısında yalnız bir tapşırıq var: "Mülki insanlara ziyan vurmadan, ancaq hərbi obyektlərə zərbə endirməklə torpaqları işğaldan azad etmək".

• Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq, sentyabrın 27-də başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin xeyli sayda döyüş texnikası, hərbi sursatı məhv edilərək sıradan çıxarılıb və qənimət götürülüb. Düşmənin ümumi itkiləri 2,7 milyard dollar dəyərində qiymətləndirilir.

• Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinə qarşı həyata keçirdiyi uğurlu döyüş əməliyyatları və dəqiq atəş zərbələri nəticəsində erməni cəmiyyətində təşviş, Ermənistan ordusunda isə xaos, kütləvi fərarilik və özbaşınalıq hökm sürür.

Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, əsasən könüllülər və düşmənin ordu bölmələrinin şəxsi heyəti arasında mübahisələr, bir-birinə qarşı silah tətbiq etmək, döyüşə girməkdən imtina, əmr olmadan mövqelərdən geri çəkilmə və kütləvi fərarilik baş alıb gedir.

Düşmənin 7-ci dağ atıcı alayının mövqelərinə gətirilmiş könüllülərlə müqavilələ hərbi qulluqçular arasında baş verən mübahisə silahlı qarşıdurma ilə nəticələnib. Ölən və yaralananlar olub.

Xocavənd rayonunun Sos yaşayış məntəqəsi istiqamətində hərəkət edən şəxsi heyətin komandanlığa tabe olmaqdan və əmri yerinə yetirməkdən imtina edərək ərazini tərk etməsi barədə yuxarı komandanlığa məlumat verilib. Həmin hərbi qulluqçuların yenidən mövqelərinə qaytarılması ilə bağlı görülən tədbirlər isə nəticəsiz qalıb.

Ermənistan silahlı qüvvələrinin 543-cü alayının hərbi qulluqçuları kütləvi şəkildə Dağlıq Qarabağa getməkdən imtina edib. Təcili olaraq hərbi hissəyə gələn hərbi prokurorluq əməkdaşları döyüşə getməkdən imtina edən hərbçiləri həbslə hədələyərək onları istənilən döyüş tapşırığını yerinə yetirmələri barədə iltizam imzalamağa məcbur ediblər.

Oxşar hadisə Ermənistanın Koti yaşayış məntəqəsində dislokasiya olunan hərbi hissəsində də baş verib. Burada xidmət edən hərbi qulluqçular döyüşə getməkdən imtina etdiklərinə görə hərbi polis tərəfindən həbs ediliblər.

Görülən bütün cəza tədbirlərinə baxmayaraq, Ermənistan müdafiə nazirliyinin rəhbərliyi Dağlıq Qarabağa getməkdən imtina edənlərin qarşısını almaqda acizdir.

Erməni hərbi qulluqçularının döyüşdən kütləvi şəkildə imtina etməsinə səbəb Azərbaycan Ordusunun döyüş meydanında qələbələri və düşmənə endirdiyi dəqiq atəş zərbələri nəticəsində çoxlu sayda döyüş texnikasının və canlı qüvvəsinin məhv edilməsi ilə bağlı təqdim edilən videogörüntülərdir.

• Oktyabrın 28-də Bərdəyə raket zərbələri endirilib. Əməliyyat-axtarış qruplarının apardıqları əməliyyat tədbirləri nəticəsində iki ədəd "Smerç" raketinin qalıqları aşkarlanıb. Həmin 9M525 kaset tipli raketin içində 72 bombacıq olur. Ümumilikdə, Bərdədə 144 bombacıq tapılıb. Onların hər birinin tərkibində isə 330 qram partladıcı maddə və 456 qəlpə yerləşir.

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) direktoru Qəzənfər Əhmədov Bərdədə təşkil edilən brifinqdə deyib: "Oktyabrın 27-də Bərdəyə endirilən zərbədə də həmin qadağan olunmuş raketdən istifadə olunub. Bundan əvvəl də Goranboy, Tərtər, Ağcabədidə də mülki əhaliyə qarşı istifadəsi beynəlxalq konvensiyalara görə qadağan olunmuş kaset tipli raketlərin qalıqları və bombacıqları ANAMA tərəfindən aşkarlanıb. Eyni zamanda, Füzuli rayonunda ağ fosfor tərkibli partlamamış sursat aşkarlanaraq zərərsizləşdirilib.

• Azərbaycan Ordusunun bölmələri Bərdədə mülki infrastruktur və dinc əhalimizi atəşə tutan düşmən bölmələrini, işğalçı ordunun qüvvə və vasitələrini darmadağın ediblər.

• Hava Hücumundan Müdafiə bölmələrimiz Qubadlı istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin iki Su-25 hücum təyyarəsini məhv ediblər.

• Ermənistanın terror hücumları nəticəsində sentyabrın 27-dən oktyabrın 29-u saat 13:00-dək həlak olan mülki şəxslərin sayı 90-a çatıb, 392 nəfər xəsarət alıb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• Xarici diplomatlar Bərdədə erməni terrorunun izləri ilə tanış olublar.

***XQ***

# Azərbaycan–Özbəkistan: Strateji tərəfdaşlıq müttəfiqliyə yüksəlib

## *20 əsas istiqamət üzrə əməkdaşlıq proqramı hazırlanır*

**Dünya birliyinin nüfuzlu üzvünə çevrilən Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası getdikcə dərinləşir, inkişaf etmiş ölkələrlə müxtəlif sahələrdə əməkdaşlığı genişlənir. Respublikamızda həyata keçirilən qlobal enerji layihələri, eləcə də ölkəmizin beynəlxalq nəqliyyat qovşaqlarının mərkəzinə çevrilməsi bu prosesi daha da sürətləndirir.**

Son illər iqtisadi sahədə əldə olunan yüksək göstəricilər, enerji layihələrinin uğurla həyata keçirilməsi Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri üçün etibarlı tərəfdaşa çevirib. Bunun nəticəsidir ki, artıq Cənubi Qafqaz regionunun ən sabit və davamlı inkişaf edən bir dövləti kimi tanınan Azərbaycanla hərtərəfli əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirməyə xüsusi maraq göstərən ölkələrin sırası genişlənib.



Əlverişli geosiyasi mövqeyi ilə fərqlənən Azərbaycan Respublikasının bu gün beynəlxalq enerji və nəqliyyat infrastrukturu layihələrinin mərkəzinə çevrilməsi ölkəmizə marağı artırır. Respublikamızın postsovet məkanına daxil olan dost ölkələrlə də əlaqələrinin səviyyəsi yüksələn xətlə inkişaf edir. Bu baxımdan, Azərbaycanın Özbəkistanla mövcud əməkdaşlıq əlaqələri diqqəti daha çox çəkir. Respublikamızla adı çəkilən ölkə arasında mədəniyyət və humanitar sahələrlə yanaşı, ticarət və iqtisadi əməkdaşlıq istiqamətində də ildən-ilə irəliləyişlər nəzərə çarpır.

Hər iki ölkə mühüm strateji tərəfdaş və müttəfiqdir. Azərbaycanı Özbəkistanla ortaq tarixi köklər, çoxəsrlik dostluq birləşdirir, bir dinə və oxşar mədəniyyətə, ənənələrə malikdir. Bütün bunlar hərtərəfli əməkdaşlığın dərinləşdirilməsi üçün möhkəm zəmindir.

Çoxtərəfli münasibətlərin əsasında ticarət, sənaye kooperasiyası, energetika, nəqliyyat və böyük imkanları özündə daşıyan kənd təsərrüfatı, eləcə də bir sıra önəmli sahələr dayanır. Çoxtərəfli platformalarda qarşılıqlı dəstək göstərmək, parlamentlər, hökumətlər, sahələr, nazirliklər səviyyəsində və ən başlıcası həm də regionlararası fəal təmasları davam etdirməklə münasibətlərin inkişafı davamlı xarakter daşıyır.

Qarşılıqlı fəaliyyətin genişlənməsində ticarət əməliyyatları önəmli rol oynayır. Buna görə də əmtəə dövriyyəsi həcmlərinin artırılması daim diqqətdə saxlanılır və bu sahə ilə bağlı göstəricini 2 dəfə artırmaq qarşıda mühüm vəzifə kimi durur. Bunun üçün bütün əsaslar var, ilk növbədə, müvafiq sahədə zəmin rolu oynayan iqtisadi nəticələrdir. Belə ki, 2022-ci ildə Azərbaycan ilə Özbəkistan arasında ticarət dövriyyəsi, təxminən, 300 milyon ABŞ dolları olub. Azərbaycanın Özbəkistana ixracatı 2022-ci ildə, təxminən, 200 milyon ABŞ dolları təşkil edib, dost ölkənin ixracatı isə 100 milyon ABŞ dolları səviyyəsində qeydə alınıb. Əsas ixracat məhsulları arasında neft məhsulları, kimyəvi maddələr və kənd təsərrüfatı məhsulları xüsusi yer tutub.

Ötən il isə ticarət dövriyyəsi, təxminən, 350 milyon ABŞ dollarını keçib. Bu da iki ölkə arasındakı ticarət əlaqələrinin dinamik genişləndiyini göstərir. Bu dövrdə Azərbaycanın Özbəkistana ixracatı 220 milyon ABŞ dolları civarında, Özbəkistanın Azərbaycana ixracatı isə 130 milyon ABŞ dolları səviyyəsində olub. İxracat məhsulları arasında enerji resursları, qiymətli metal və kənd təsərrüfatı məhsulları əsas yer alıb.

2025-ci ilin "Özbəkistan–Azərbaycan iqtisadi kooperasiyası ili" elan edilməsi və bununla yanaşı, adıçəkilən sahəni sürətlə inkişaf etdirmək məqsədi daşıyan 20 əsas istiqamət üzrə proqram hazırlanmasının nəzərdə tutulması bu yolda ciddi uğurlar əldə edilməsini şərtləndirir.

Artıq hər iki ölkə arasında qarşılıqlı kooperasiya layihələrinin icrası istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Məsələn, biznes-forumların məhsuldar şəkildə gerçəkləşdirilməsi, kooperasiyanın inkişafının sürətləndirilməsi üçün müəyyən müqavilə və sazişlərin imzalanması nəzərdə tutulur. Mehmanxanaların, tekstil klasterlərinin, tikiş fabriklərinin tikintisi, inşaat materiallarının geniş həcmdə istehsalı bu məqsədin gerçəkləşməsinə hesablanır. Belə layihələrin həyata keçirilməsi üçün 500 milyon dollar kapitalı olan birgə investisiya şirkəti də səmərəli fəaliyyət göstərir.

Qeyd edək ki, Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsi 5 ildə 3 dəfə artıb. Bunu qardaş ölkənin investisiya, sənaye və ticarət naziri Laziz Kudratov Daşkənddə keçirilən Özbəkistan–Azərbaycan biznes forumunda çıxışı zamanı deyib. Nazirin sözlərinə görə, bu ilin əvvəlindən qarşılıqlı ticarətin həcmi 20 faiz artıb. Rəqəmlərin kiçik olmasına baxmayaraq, yaxın 1–2 ildə ticarətin həcminin 1 milyard dollara çatdırılması gözlənilir.

Nazir qeyd edib ki, ölkələr bir sıra sahələrdə, o cümlədən energetika, şəhərsalma, maşınqayırma, kənd təsərrüfatı, toxuculuq və ipək sənayesi sahələrində əməkdaşlığı inkişaf etdirir. Özbəkistan biznesi də Azərbaycanda fəaldır. O qeyd edib ki, Bakı və Şuşa şəhərlərində Özbəkistanın şou-rumu, milli pavilyonları və ticarət evlərinin, Daşkənd və Səmərqənd şəhərlərində isə Azərbaycanın ticarət evlərinin açılması nəzərdə tutulur.

L.Kudratov vurğulayıb ki, digər əməkdaşlıq sahəsi dağ-mədən sənayesində birgə layihələrin həyata keçirilməsidir. Hər iki ölkənin böyük xammal bazası var. Özbəkistan Azərbaycan ərazisində mineral ehtiyatların işlənməsinə, o cümlədən Azərbaycanın işğalçıdan təmizlənən ərazilərində bərpa işlərində istifadə oluna biləcək tikinti materialları istehsalının yaradılmasına hazırdır.

Nazirin sözlərinə görə, energetika və neft–qaz sənayesi sahələrində əməkdaşlıq müsbət dinamikaya malikdir. Tərəflər yaşıl enerjinin istehsalı və daha sonra Azərbaycan vasitəsilə Avropa ölkələrinə ixracı layihəsi üzərində işləyirlər.

Hazırda Azərbaycan–Özbəkistan arasında nəqliyyat əlaqələrinin möhkəmləndirilməsi, o cümlədən, Trans–Xəzər dəhlizinin inkişafı vasitəsilə birgə səylər uğurla davam etdirilir. Qarşılıqlı əlaqələrin potensialından maksimum yararlanılır. Regionlararası kooperasiya üzrə yol xəritəsinin qəbul edilməsi, gələn il Özbəkistanın Kokand şəhərində növbəti regionlararası forumun keçirilməsi, paytaxtlarda turistik komplekslərin yaradılması nəzərdə tutulur.

Prezident İlham Əliyev bu ilin avqustunda Özbəkistana dövlət səfəri zamanı iki ölkə münasibətlərindən danışarkən deyib: "Müxtəlif dövrlərdə, xüsusən son illərdə Özbəkistana dəfələrlə səfər etmişəm. Şavkat Miromonoviçin rəhbərliyi ilə özbək xalqının həyata keçirdiyi möhtəşəm dəyişiklikləri əyani şəkildə görürəm və buna şadam. Şəhərlər gözəlləşir, sənaye fəal inkişaf edir. Keçən səfərimdə biz Daşkənddə birlikdə böyük sənaye kompleksində olduq. Bütün bunlar müdrik siyasətin, xarici investisiyaların cəlb edilməsinin, əlverişli biznes mühitinin yaradılmasının nəticəsidir".

Beləliklə, bugünkü Özbəkistan sosial–iqtisadi inkişaf üzrə aparılan gündəlik iş, çoxlu sayda sosial layihələrlə səciyyələnir, təkcə regionda deyil, həm də dünya miqyasında getdikcə sanballı siyasi nüfuza malik dövlətə çevrilir və bunun nəticəsidir ki, hər iki ölkə arasında mövcud səmərəli əməkdaşlıq getdikcə genişlənir.

# Azərbaycan Dəmir Yollarının ilk "dayanıqlılıq hesabatı"

**"Gələcək üçün dayanıqlı nəqliyyat" mövzusunda mərasimdə "Azərbaycan Dəmir Yolları" QSC-nin ilk "dayanıqlılıq hesabatı" təqdim edilib. Bunumla bağlı QSC-nin yaydığı məlumatda polad magistralın qlobal karbon qazı emissiyasının 1 faizini təşkil etdiyi və buna görə də digər nəqliyyat növləri ilə müqayisədə daha səmərəli olduğu bildirilib.**



Təqdimatda Azərbaycanda dayanıqlı nəqliyyatın, xüsusilə dəmir yollarının "yaşıl" innovasiyalar və qabaqcıl rəqəmsal həllərin tətbiqi ilə dekarbonizasiya hədəflərinə çatmaq üçün görülən işlər, bu istiqamətdə atılacaq addımlar barədə ətraflı danışılıb. Rəqəmsal innovasiya sahəsində beynəlxalq əməkdaşlıq və dayanıqlı nəqliyyatın inkişafı üçün Azərbaycanın strateji baxışının əsas məqamları diqqətə çatdırılıb. Qlobal iqlim məqsədləri və dekarbonizasiya hədəflərinin yerinə yetirilməsində nəqliyyatın önəmi, bu sahədə əsas qlobal təcrübələr və 2030-cu ilədək Milli Prioritetlər, həmçinin ölkəmizin "yaşıl" innovasiya sektorunda artan rolu haqqında iştirakçılara ətraflı məlumat verilib.

Mərasimdə çıxış edən "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov dayanıqlı nəqliyyatın qurulmasında dəmir yollarının roluna toxunaraq bildirib ki, dəmir yolu dayanıqlığının birinci və ən mühüm aspekti emissiyaların azaldılması və enerji səmərəliliyidir. Ölkəmizdə ümumi enerji istehlakının 1,12 faizi dəmir yolu nəqliyyatının payına düşür və bu sahədə istilik effekti yaradan qazların emissiyası 0,5 faizdən az təşkil edir: "Məqsəd karbon emissiyalarından tam azad, yəni karbon neytral dəmir yolu nəqliyyat sistemini qurmaqdır. 2023-cü ildə sərnişinlərin 100 faizinin, yüklərin isə 80 faizinin daşınmasının elektrik enerjisi hesabına həyata keçirilməsi də bu istiqamətdə həyata keçirilən tədbirlərin səmərəliliyinin mühüm göstəricisidir.

Təqdimatda iştirak edən Asiya İnkişaf Bankının nəqliyyat direktoru Ceyms Leder çıxışı zamanı qlobal miqyasda dəmir yolu sistemlərinin dekarbonizasiyası istiqamətində görülən təşəbbüslərdən danışıb, "Azərbaycan Dəmir Yolları"nda bu layihələrin reallaşdırılmasının gətirəcəyi faydaları qeyd edib.

Mərasimin sonunda QSC-nin sədri Rövşən Rüstəmov və Asiya İnkişaf Bankının nəqliyyat direktoru Ceyms Lederin iştirakı ilə iki qurum arasında dəmir yollarında dekarbonizasiya sahəsində əməkdaşlığa dair missiya sənədi imzalanıb.

# "Köhnə avtomobili ver, yenisini al!"



**(əvvəli 1-ci səhifədə)**

Statistik göstəricilərə əsasən, hazırda Azərbaycanda hər beş avtomobildən biri ekoloji və təhlükəsizlik standartlarına cavab vermir. Bunu nəzərə alaraq "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"na əsasən ölkədə nəqliyyat vasitələrinin utilizasiyası proqramı hazırlanıb. Bununla yanaşı, proqramın tətbiqi ilə əlaqədar, ümumilikdə, 10-dan çox qanunvericilik aktına dəyişiklik və əlavələr edilib.

"Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununun nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı bu ilin sentyabr ayından qüvvəyə minmiş müddəalarına uyğun olaraq ötən müddət ərzində "Təmiz Şəhər" ASC tərəfindən utilizatorların reyestrdə qeydiyyatı üçün tədbirlər görülüb. Utilizator fəaliyyəti üzrə nəzərdə tutulan tələblərə cavab verən "Fors" MMC nəqliyyat vasitələrinin utilizatorlarının reyestrində qeydiyyata alınıb.

Qurumun məlumatında qeyd edilib ki, nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi könüllülük prinsipi əsasında həyata keçirilir və məcburi xarakter daşımır. Utilizasiyaya verilməzdən əvvəl nəqliyyat vasitəsi "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən qaydada dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. İstismara yararsız avtomobilini uçotdan çıxaran və utilizatora təhvil verən şəxsə yerli istehsal olan yeni nəqliyyat vasitəsi almaq üçün güzəşt və ya birdəfəlik ödəniş hüququ verən təsdiqedici sənəd verilir.

# Taxıl istehsalında "nüvə texnologiyası"

## *"Ağıllı" bitkiçilik məhsuldarlığı yüksəldir*

**1991-ci ildə Azərbaycanda 1 milyon 346,4 min ton taxıl məhsulları, o cümlədən 889,4 min ton buğda istehsal olunmuşdusa, 2023-cü ildə bu göstəricilər müvafiq olaraq 3 milyon 248,6 min ton (2,4 dəfə çox) və 1 milyon 833,9 min ton (2,1 dəfə çox) təşkil edib.**



Bunu kənd təsərrüfatı naziri Məcnun Məmmədov Bakıda keçirilən "İqlim dəyişikliyi fonunda dayanıqlı ərzaq təhlükəsizliyi" mövzusunda konfransda bildirib: "Azərbaycan SSRİ dövründə buğda ilə özünü təqribən 30 faiz səviyyəsində təmin edirdisə, hazırda bu göstərici, təqribən, 58 faizə yüksəlib. Son zamanlar ölkədə kənd təsərrüfatının inkişafı sahəsində formalaşmış potensial, xüsusilə dövlət–özəl tərəfdaşlığı hesabına və müasir texnologiyaların tətbiqinə əsaslanmaqla iri taxılçılıq təsərrüfatlarının yaranması, həmçinin uzun illər ərzində işğal altında qalan torpaqlarımızın azad olunması ölkənin buğda ilə özünütəminetmə səviyyəsinin daha da artırılması üçün yeni hədəflər və yeni imkanlar yaradıb".

Nazir əlavə edib ki, cari ilin noyabrnda Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində təşkil olunmuş bu konfransın mövzusu kənd təsərrüfatı sektorunun əsas çağırışlarından biridir. Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyinin dünyada gedən qlobal prosesləri və ölkə prioritetlərini nəzərə alaraq aqrar siyasətin yönəldilməsində səmərəli istifadəni, resursqoruyucu yanaşmaların tətbiqini, ətraf mühitin mühafizəsini və dayanıqlı təsərrüfatçılıq ənənələrinin formalaşmasını ön planda saxladığını vurğulayan M. Məmmədov deyib ki, bütün növ vergi ödəmələrindən azad olan aqrar sektorda fermerlərə dəstək üçün müxtəlif növ subsidiya və kredit mexanizmləri mövcuddur. "Ölkədə aqrar biznes sektorunu dəstəkləmək üçün aqrar bazarı ədalətli rəqabətə açmışıq. Hazırda xarici və yerli şirkətlər sadələşdirilmiş prosedurlardan keçərək müstəqil olaraq öz məhsullarını fermerlərə təklif edə və dövlətin güzəştlərindən yararlana bilir. Prezident İlham Əliyevin həyata keçirdiyi aqrar islahatlar çərçivəsində ərzaq təhlükəsizliyi məqsədlərinə xidmət edən aqrar sahəyə dövlət dəstəyi mexanizmləri daim təkmilləşdirilməklə, bu mexanizmlər üzrə müvafiq dəstək tədbirlərinin həcmi də mütəmadi olaraq artırılır. Azərbaycanda taxıl məhsulları, o cümlədən buğda istehsalının həcmi dövlət müstəqilliyinin əldə olunduğu dövrlə müqayisədə ciddi şəkildə yüksəlib", – deyə nazir əlavə edib.

Yeri gəlmişkən, Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri Azad Cəfərli Azərbaycanda səfərdə olan Atom Enerjisi üzrə Beynəlxalq Agentliyinin (AEBA) eksperti Qreyg Makkenzi ilə görüşdə ölkəmizin resurslarının səmərəli istifadə olunmasının iqlim dəyişikliyinin təsirlərinin minimuma endirilməsinə imkan verəcəyini bildirib.

Görüşdə buğda və arpa istehsalında "ağıllı" kənd təsərrüfatı üzrə təcrübə mübadiləsi məsələsi müzakirə olunub. Bildirilib ki, müasir dövrdə kənd təsərrüfatında geniş tətbiq edilən innovativ metodlar ərzaq təhlükəsizliyinin gücləndirilməsində və ətraf mühitə mənfi təsirlərin azaldılmasında mühüm rol oynayır. Kənd təsərrüfatının məhsuldarlığının artması, ilk növbədə, stress amillərinə davamlı, yerli şəraitə adaptasiya olunan məhsuldar bitki sortlarının yaradılmasından, kənd təsərrüfatı səviyyəsində mədəni və texnoloji dəyişikliklərin qəbul edilməsindən asılıdır.

Qeyd edilib ki, kənd təsərrüfatının iki əsas sahəsindən biri olan bitkiçilik məhsullarının istehsalında və ərzaq təhlükəsizliyinin təmin edilməsində taxıl bitkiləri (buğda, arpa, çəltik və qarğıdalı) əhəmiyyətli rol oynayır. Bu baxımdan torpaq, qida maddələri, sudan səmərəli istifadə və həmin resursların effektiv idarə olunması Azərbaycanda bitkiçilik sahəsində məhsuldarlığın artmasına, iqlim dəyişikliyinin təsirlərinin minimuma endirilməsinə imkan verəcək.

Görüş zamanı taxıl istehsalında məhsuldarlığın artırılması və istehsalın dayanıqlılığının təmin edilməsində stress amillərinə davamlı taxıl sortlarının əhəmiyyəti vurğulanıb.Tərəflər nüvə texnologiyasının və müvafiq metodların tətbiqinin aktual məsələlərdən olduğunu qeyd ediblər. Bundan əlavə,- seleksiya işlərində nüvə texnologiyasının tətbiqi təcrübəsi, təklif edilən texnologiyanın seleksiya prosesinin qısaldılmasında rolu və əldə olunan nəticələr də müzakirə olunub.

# Polad magistralda "Sima Pay"

**Ölkəmizin dəmir yollarında üztanıma ilə ödənişlərə başlanılacaq. Bu barədə "Dayanıqlı mikromaliyyə üçün innovativ həllər" mövzusuna həsr edilmiş Azərbaycan Mikromaliyyə Konfransında çıxışı zamanı "Sima Pay" "AzinTelekom"un məhsul və xidmətlər şöbəsinin müdiri Tamerlan Məşədihəsənli məlumat verib.**



O bildirib ki, Azərbaycan Dəmir Yolları QSC ilə əməkdaşlıq çərçivəsində inteqrasiyaların həyata keçirilməsi gözlənilir. Bundan sonra dəmir yolu stansiyalarında "Sima Pay"la ödəniş etmək mümkün olacaq.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




**“Yaşıl dünya” naminə həmrəylik**



# COP29: Azərbaycan paytaxtı “yaşıl” gələcəyə qapı açır

(əvvəli 1-ci səhifədə)



### Ekoloji təhlükəsizlik və iqtisadi inkişaf

COP29-un keçirilməsi ölkəmizin özündə siyasi, iqtisadi, sosial və ekoloji komponentləri birləşdirən davamlı inkişafı ilə sıx bağlıdır. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi qlobal iqlim dəyişikliyinin qarşısının alınması üçün təsirli vasitələrdən biri olan “yaşıl” enerji sektorunun inkişafında əhəmiyyətli rol oynayır. Karbohidrogen mənbələrindən asılılığın azaldılması bərpaolunan enerji resurslarının potensialından səmərəli şəkildə istifadə olunmasını sürətləndirir. “Yaşıl” enerjiyə keçid istixana qazları emissiyalarını azaltmaqla ekoloji vəziyyəti yaxşılaşdırmağa kömək edir ki, bu da iqlim dəyişikliyi ilə mübarizə üzrə beynəlxalq öhdəliklərin yerinə yetirilməsi baxımından vacibdir.

Şaxələndirmə yerli və xarici sərmayəçilər, “yaşıl” enerji layihələrini həyata keçirməkdə maraqlı olan şirkətlər üçün əlverişli iqtisadi mühit formalaşdırır. İnvestisiyaların cəlb edilməsi “yaşıl” enerji infrastrukturunun inkişafına təkan verir, “yaşıl iqtisadi artım”ı stimullaşdırır. Bərpaolunan enerji mənbələri innovativ həllər vasitəsilə mövcud enerji şəbəkələrinə inteqrasiya olunur, daha dayanıqlı enerji formalarına keçid təmin edilir, ümumi daxili məhsulda “yaşıl” enerji sektorunun həcmi getdikcə artır. Enerji istehsalının səmərəliliyi və dayanıqlığı güclənir ki, bu da enerji təhlükəsizliyinin möhkəmlənməsində vacib əhəmiyyət daşıyır. Əlverişli iqtisadi mühit bərpaolunan enerji mənbələri ilə bağlı layihələrin uğurla həyata keçirilməsini təmin edir. “Yaşıl” enerjinin dünya bazarlarına nəqli Azərbaycan dövlətinin enerji siyasətinin əsas vəzifələrindən birini təşkil edir. Elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılması nəzərdə tutulur.

Davamlı iqtisadi inkişafın nəticəsində COP29 kimi nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi üçün zəruri infrastruktur yaradılıb. Müasir standartlara cavab verən avtomobil və dəmir yolları, hava limanları şəbəkəsinin mövcudluğu, böyük mehmanxanaların, yüksək səviyyəli xidmətlərin olması, lazımi texniki təchizatla təmin edilmiş konfrans mərkəzləri, onlayn yayımı, qarşılıqlı əlaqəni təmin edən rabitə sistemləri və internet infrastrukturun inkişafı COP29-un yüksək səviyyədə təşkili üçün böyük əhəmiyyət daşıyır.

### COP29-un Azərbaycanda keçirilməsinin siyasi aspektləri

COP29-un ölkəmizdə keçirilməsi qərarının verilməsi iqtisadi amillərlə yanaşı, həm də siyasi amillərə söykənir. Belə ki, ölkəmiz Cənubi Qafqaz regionunun lider dövləti kimi dünya birliyində böyük nüfuz qazanıb, ətraf mühitin qorunmasına dair beynəlxalq konvensiyalara qoşulub. Azərbaycan Respublikası 1995-ci ildə BMT-nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya edib, 2000-ci ildə isə həmin konvensiyaya əlavə olunan Kioto protokolunu imzalayıb. Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün “Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında” ölkə Prezidentinin 1997-ci il 30 aprel tarixli sərəncamı ilə İqlim Dəyişmələri üzrə Dövlət Komissiyası yaradılıb. Azərbaycan Respublikası 1998-ci ildə BMT-nin Səhralaşmaya qarşı mübarizə Konvensiyasını, 2000-ci ildə isə BMT-nin Biomüxtəlifliyin qorunması haqqında Konvensiyasını ratifikasiya edib. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 21 dekabr tarixli sərəncamı ilə Bioloji müxtəlifliyin genetik ehtiyatları üzrə Dövlət Komissiyası yaradılıb, 2003-cü il 18 fevral tarixli sərəncamı ilə ölkədə ekologiyaya dair milli proqramlar təsdiq edilib.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 iyul tarixli fərmanı ilə “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında Razılaşma” təsdiq edilib. Dövlət başçısının 2024-cü il 10 oktyabr tarixli fərmanı ilə “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında məlumat mübadiləsi haqqında Anlaşma Memorandumu” təsdiq olunub. “BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası ilə bağlı Tərəflərin 21-ci Konfransında qəbul olunmuş Paris Sazişinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (28 oktyabr 2016-cı il) imzalanıb.

Adıçəkilən sazişlər və konvensiyalarda tərəflər arasında iqlim dəyişikliyi, ekoloji mühitin çirklənməsinin qarşısının alınması, tullantıların idarə edilməsi və yenidən istifadəsi, torpaqların mühafizəsi, ətraf mühitə mənfi təsirlərin qiymətləndirilməsi, habelə digər sahələrdə əməkdaşlığın yaradılması nəzərdə tutulur. Neft sənayesinin ekologiyaya təsirinin məhdudlaşdırılması məqsədilə təcrübə mübadiləsinin aparılması, yanacaq-enerji kompleksinin ətraf mühitə təsirlərini azaltmaq məqsədilə enerji səmərəliliyinin artırılması, alternativ və bərpaolunan enerji mənbələrindən istifadə sahəsində əməkdaşlıq, “yaşıl” enerjinin inkişafı və ötürülməsi istiqamətində strateji tərəfdaşlıq və qabaqcıl ekoloji texnologiyaların mübadiləsinə böyük əhəmiyyət verilir. Sənədlərdə əsasən aşağıdakı hədəflər müəyyən olunur:

• yaşıl və təmiz enerji mənbələrini, enerji səmərəliliyini, o cümlədən bərpaolunan enerji mənbələrindən istifadəni təşviq etmək üçün birgə əməkdaşlığın gücləndirilməsi;

• bərpaolunan enerji mənbələrindən istehsal edilən elektrik enerjisinin tranzit ötürülməsi və təchizatı sahəsində əməkdaşlıq;

• “yaşıl hidrogen” istehsalı, nəqli və ticarəti layihələrinin həyata keçirilməsi, bu sahədə məlumat, nou-hau mübadiləsinin aparılması;

• enerji səmərəliliyi və enerjiyə qənaət məsələləri üzrə yeni texnologiyaların tətbiqi, bu istiqamətdə xidmətlərin formalaşdırılması;

• bərpaolunan enerjinin istehsalı, nəqli, ticarəti sahələrində fəaliyyət imkanlarının müəyyən edilməsi və s.

Ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunması məqsədilə “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”, “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”, “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı”, “Yerin təkinin geoloji öyrənilməsinə və mineral-xammal bazasından səmərəli istifadəyə dair 2020–2024-cü illər üçün Dövlət Proqramı” və digər sənədlər çərçivəsində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

COP29-un təşkili ölkəmizin xarici dövlətlərlə, beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli münasibətlərinin dərinləşməsində geniş imkanlar yaradır ki, bu da Azərbaycanın dünyada siyasi mövqeyinin daha da güclənməsi deməkdir. Bu tədbir ölkəmizin iqlim dəyişikliyinə qarşı mübarizədəki strateji hədəflərini geniş auditoriyaya çatdırmaq üçün vacib platformadır. Prezident İlham Əliyev COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı verilən qərarı yüksək qiymətləndirərək deyib: “COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün, həqiqətən, böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət, bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq”. Azərbaycan Prezidenti COP29-un beynəlxalq əməkdaşlıq üçün əhəmiyyətini vurğulayaraq qeyd edib: “Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq”.

Ekoloji problemlər qlobal xarakter daşıdığından onların aradan qaldırılması üçün dövlət başçılarının, beynəlxalq təşkilatların nümayəndələrinin birgə səy göstərmələri vacibdir. Siyasi iradə olmadan ətraf mühitlə bağlı məsələlərin optimal həllini nəzərdə tutan zəruri qərarların qəbul edilməsi və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi mümkün deyil. Buna görə də Prezident İlham Əliyev qətiyyətli siyasi iradə göstərərək xarici ölkələrin dövlət başçıları və hökumət nümayəndələri, beynəlxalq təşkilatların rəhbərləri və təmsilçiləri ilə görüşlərində qlobal ekoloji problemlərin həllində Azərbaycanın prinsipial mövqe tutduğunu, xüsusilə, iqlim dəyişikliyindən irəli gələn məsələlərlə bağlı dünya ölkələri arasında həmrəyliyin, birgə fəaliyyətin gücləndirilməsinin vacibliyini vurğulayıb.

Ölkəmiz qlobal iqlim dəyişikliyinə dair məsələlərin müzakirəsində yaxından iştirak etmək imkanı qazanmaqla həm də bu sahədə beynəlxalq siyasətin formalaşmasına təsir göstərir. Azərbaycan Prezidentinin təşəbbüsü ilə ölkəmizdə ətraf mühitin qorunmasını nəzərdə tutan zəruri qanunvericilik sistemi formalaşdırılıb, səmərəli institutsional mexanizmlər yaradılıb. Prezident İlham Əliyevin 2010-cu ili ölkəmizdə “Ekologiya ili” elan etməsi ekoloji problemlərin həllinə böyük diqqət və həssaslıqla yanaşmağın bariz nümunəsidir. Azərbaycan Prezidentinin 2023-cü il 25 dekabr tarixli sərəncamı ilə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması ölkəmizin iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verməklə böyük iradə nümayiş etdirdiyini bir daha göstərir.

### Müasir dövrün ekoloji çağırışları: problemlər və onların həlli yolları

Ekoloji tarazlığın bərpası, təbii ehtiyatlardan səmərəli istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi qlobal xarakter daşıyır. Hələ 1992-ci ildə BMT-nin təşəbbüsü ilə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş konfransda dünyanın gələcək inkişafının ekoloji problemlərin həlli ilə sıx bağlı olduğu xüsusi vurğulanıb. İqlimin getdikcə istiləşməsi, səhralaşma prosesinin daha geniş miqyas alması, ətraf mühitin çirklənməsindən irəli gələrək müxtəlif xəstəliklərin yayılması qlobal xarakter daşıyır. Onların aradan qaldırılması milli və beynəlxalq səviyyələrdə operativ tədbirlərin həyata keçirilməsini zəruri edir.

Qlobal ekoloji çağırışlar aşağıdakılardır:

• Qlobal iqlim dəyişikliyi insanların həyatı və sağlamlığına, flora və faunaya təhlükə yaradır, həmçinin hidroloji və meteoroloji parametrlərin dəyişməsinə səbəb olur.

• Bərpaolunan enerji mənbələrindən istifadə edilməsi, “yaşıl” enerjiyə keçid ekoloji böhranın mənfi təsirlərinin azaldılması üçün təsirli vasitələrdən biri olduğundan milli və beynəlxalq platformalarda bu amilə ciddi önəm verilməlidir.

• Sənaye və məişət tullantıları, pestisidlər və plastik materialların atılması insan sağlamlığına, ekosistemlərə zərər ciddi zərər verir.

• Neft dağılmaları və digər çirkləndiricilər dəniz ekosistemlərinə böyük təhlükə yaradır.

• Torpağın keyfiyyətini pisləşdirən gübrələr, pestisidlər, zəhərli tullantılar qida təhlükəsizliyinin təmin olunmasına ciddi problemlərə səbəb olur və s.

Ölkəmizdə ətraf mühitə mənfi təsirləri və riskləri əhəmiyyətli dərəcədə azaldan iqtisadi inkişaf modeli kimi “yaşıl iqtisadiyyat”ın inkişafı sahəsində mühüm irəliləyişlər əldə edilir. Təbii ehtiyatlardan səmərəli istifadə, ekoloji tarazlığın qorunması istiqamətində ardıcıl tədbirlər görülür.

Azərbaycan dövlətinin apardığı ekoloji siyasətin əsas hədəfini əhalinin sağlam ətraf mühit şəraitində yaşamasının təmin olunması təşkil edir. Bu məqsədlə istilik effekti yaradan qazların tullantılarının statistik hesabatı, qiymətləndirilməsi, mənbələri və toplayıcıları haqqında məlumatların analitik-informasiya sistemləri yaradılıb, dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsi üçün iqtisadiyyata, ekosistemlərə iqlimin təhlükəli təsirləri barədə məlumatların toplanması, təhlili və ümumiləşdirilməsi üzrə dövlət informasiya sistemi formalaşdırılıb, ozondağıdıcı maddələrdən istifadə olunması tədricən aradan qaldırılıb.

Məqsədyönlü səkildə həyata keçirilən ekoloji siyasətin nəticəsində

• ekosistemlər və biomüxtəliflik qorunur;

• ölkəmizin inkişafının ekoloji baxımdan dayanıqlığı təmin olunur;

• ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə iqtisadi resurslardan səmərəli istifadə edilir;

• “yaşıl” enerji texnologiyalarından istifadə olunmasına böyük əhəmiyyət verilir və s.

Ekoloji siyasət sosial-iqtisadi və ekoloji proqnozlar nəzərə alınmaqla qərarların qəbul edilməsi, bu prosesdə alternativ variantlardan istifadə olunması, ətraf mühitin qorunmasında vətəndaş cəmiyyəti institutlarının potensialından istifadə olunması kimi prinsiplərə əsaslanır.

Ekoloji siyasətin əsas istiqamətləri aşağıdakılardır:

• su ehtiyatlarından səmərəli istifadə, xüsusilə, Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi;

• iqlim dəyişmələrinin mənfi təsirlərinin azaldılması;

• atmosfer havasının mühafizəsi;

• biomüxtəlifliyin qorunması;

• meşə örtüyünün, yaşıllıqların mühafizəsi;

• çirklənmiş ərazilərin bərpası;

• tullantıların idarə olunması;

• ekoloji şüurun inkişaf etdirilməsi və s.

Ölkəmizdə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər 40 faiz azaldılması nəzərdə tutulur. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası “yaşıl enerji zonası” elan olunub, bu ərazilərdə bərpaolunan enerji mənbələrindən effektiv istifadə edilməsi istiqamətində genişmiqyaslı işlər görülür.

Ətraf mühitin qorunmasına Azərbaycan dövlətinin böyük həssaslıqla yanaşmasının əsas səbəblərindən biri də işğaldan azad edilmiş ərazilərdə vaxtilə Ermənistanın ekoloji terror törətməsidir. Ermənistan ətraf mühitin mühafizəsinə dair qoşulduğu beynəlxalq konvensiyaları kobud şəkildə pozaraq bu əraziləri ekoloji fəlakət zonasına çevirib, işğal dövründə təbii ehtiyatlar istismar olunaraq talan edilib. Milli park və qoruqlar, qiymətli ağaclar, digər nadir biomüxtəliflik nümunələri məhv olunub. Ümumi sahəsi 8 min hektardan çox olan qiymətli çoxillik sıx meşələrdən ibarət ekosistemin məhv edilməsi ilə biomüxtəlifliyə ağır zərbə vurulub. Qiymətli flora və fauna növləri ilə zəngin olan meşələr talan edilib. Su hövzələri böyük antropogen təsirə məruz qalıb, içməli su mənbələri məqsədli şəkildə kimyəvi, bioloji və digər radioaktiv tullantılarla çirkləndirilib. Hazırda bu ərazilərdə ekoloji vəziyyətin bərpası, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların salınması və artırılması, ekosistemin qorunması istiqamətində Azərbaycan dövləti tərəfindən ardıcıl siyasət aparılır.

Məlumdur ki, qlobal ekoloji problemlərin səmərəli həlli üçün dünya dövlətlərinin birgə maliyyə dəstəyi göstərməsi vacib şərtlərdən biridir. Məhz bu halda iqlim dəyişikliyi, havanın çirklənməsi və digər ekoloji təhlükələrə qarşı mübarizənin aparılması, biomüxtəlifliyin və ekosistemlərin qorunması mümkündür. Qlobal iqlim böhranının həlli böyük həcmdə sərmayə tələb edir. Lakin iqlim maliyyəsinin hazırkı həcmi lazım olduğundan bir neçə dəfə aşağıdır. Buna görə də iqlim dəyişikliyinin qarşısının alınması üçün maliyyələşmə vacib məsələlərdən biridir. Araşdırmalar göstərir ki, həm maliyyə ödəmələri, həm də iqlim dəyişikliyinin azaldılması üçün göstərilən səylər hələlik müəyyən edilmiş tələblərə cavab vermir. İnkişaf etmiş ölkələrin qlobal iqlim dəyişmələrinin qarşısının alınması ilə bağlı maliyyə məsələlərinin həllində lazımi fəallıq göstərməməsi, yükü digər maliyyə mənbələrinin üzərinə atmağa çalışması təəccüb doğurur. Xüsusilə, bu məsələdə ABŞ-nin mövqeyi xeyli suallar yaradır. Dünyada neft və qaz kimi qazıntı yanacaqlarının çıxarılmasında və atmosferə böyük həcmdə karbon emissiyasının atılmasında əsas yerlərdən birini tutan ABŞ-nin iqlim dəyişikliyinin qarşısının alınması üçün maliyyə yardımının göstərilməsində özünü kənarda saxlamağa üstünlük verməsi birmənalı qarşılanmır.

Azərbaycan dövləti COP29 çərçivəsində qlobal iqlimə uyğunlaşma üzrə beynəlxalq əməkdaşlıq çərçivəsində effektiv maliyyələşmə mexanizmlərinin formalaşmasına böyük həssaslıqla yanaşır. İqlim məsələləri üzrə dünyanın tanınmış alimlərinin və ekspertlərin hesablamalarına görə, 2030-cu ilə qədər qlobal iqlim dəyişikliyinin qarşısının alınması üçün ən azı 1 trilyon ABŞ dolları həcmində investisiya lazımdır. Buna görə də Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə maliyyə öhdəliklərinin yerinə yetirilməsinə xüsusi əhəmiyyət verir. Təbii ki, qlobal iqlim dəyişikliyinə qarşı effektiv mübarizənin aparılması bir və yaxud bir neçə ölkənin maliyyə dəstəyi ilə mümkün deyil. Bu məsələdə dünya dövlətlərinin və beynəlxalq qurumların birgə səy göstərməsi vacibdir.

Yuxarıda göstərilənləri ümumiləşdirsək aydın olur ki, qlobal ekoloji problemlər bəşəriyyəti ciddi şəkildə narahat edir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı qlobal səviyyədə ekoloji təhlükəsizliyin təmin edilməsində əhəmiyyətli rol oynayan institusional mexanizmlərdən biridir. COP-un 29-cu sessiyasının Azərbaycanda keçirilməsinin qərara alınmasında ölkəmizin davamlı inkişafı, onun tərkib hissələrindən biri kimi ətraf mühitin qorunması sahəsində əldə etdiyi uğurlar, növbəti mərhələ üçün müəyyən edilmiş hədəflər həlledici rol oynayır. COP29 iqlim dəyişikliyinin qarşısının alınması məqsədilə ölkəmizlə xarici dövlətlər və beynəlxalq təşkilatlar arasında birgə əməkdaşlığın yeni perspektivlərini yaradır.

***Vüqar SƏLİMOV,***
***fəlsəfə doktoru***




## "Yaşıl dünya" naminə həmrəylik



# Dövlət Neft Şirkətinin enerji keçidinə önəmli töhfələri

**Qlobal iqlim dəyişikliyi və atmosferə atılan karbon emissiyalarının getdikcə artması bütün bəşəriyyəti narahat edən əsas məsələlərdəndir. Hazırda dünya ölkələri, beynəlxalq şirkətlər, institutlar və vətəndaş cəmiyyətləri istixana effekti yaradan qazların səbəb olduğu iqlim dəyişikliklərinin qarşısının alınması, neqativ təsirlərinin azaldılması üçün istixana effekti yaradan qazların səbəb olduğu iqlim dəyişikliklərinin qarşısının alınması istiqamətində ciddi addımlar atırlar.**

Beynəlxalq səviyyədə enerji təhlükəsizliyi və dayanıqlılığına zəmanət verən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) də 2050-ci ilə qədər enerji keçidini özünün prioritet inkişaf istiqamətlərindən biri kimi müəyyənləşdirib. Bu məqsədlə şirkət "yaşıl" gündəlik üzrə mühüm öhdəliklər götürüb. Artıq 2 ilə yaxındır ki, qurumda neft-qaz şirkətindən enerji korporasiyasına çevrilmək üçün transformasiya prosesi həyata keçirilir. Bununla yanaşı, yeni bizneslərin yaradılması istiqamətində səylərini artıran şirkət aşağı karbonlu bizneslərdən sayılan külək, günəş, hidrogen enerjisi, eləcə də digər istiqamətlərdə araşdırmalar aparır. Aşağı karbonlu layihələrin icrası isə qurumun tərkibində yaradılmış SOCAR GREEN şirkəti vasitəsilə həyata keçirilir.

SOCAR istixana qazlarının emissiya göstəricilərinin, karbon dioksid və metan emissiyalarının azaldılması üzrə real addımların öyrənilməsi və şirkətin "yaşıl" layihələr portfelinin qiymətləndirilməsinə əsasən 2050-ci ilədək mərhələli dekarbonizasiya proqramı hazırlayıb. Bundan da məqsəd istehsal fəaliyyəti nəticəsində atmosferə buraxılan istixana effekti yaradan qazların könüllü olaraq azaldılmasından ibarətdir. Neft-qaz əməliyyatları zamanı formalaşan istilik effekti yaradan qazların inventarlaşdırılması üçün BMT-nin İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin metodoloji sənədlərinə istinad edilməklə "Stasionar mənbələrdə yandırma prosesində istilik effekti yaradan qazların hesablanması metodikası" hazırlanaraq müvafiq dövlət orqanları və Nazirlər Kabineti ilə razılaşdırılılıb. Bu metodikadan istifadə edilməklə SOCAR-ın strukturuna daxil olan müəssisələr, şirkətin iştirak etdiyi layihələr, habelə elektrik enerjisi təchizatı və xidmət sektorunu əhatə etməklə istixana effekti yaradan qazların həcminin hesablanması mümkündür. Bu da dekarbonizasiya mərhələsində emissiyaların azaldılmasına imkan yaradacaq.

SOCAR bu istiqamətdə fəaliyyətini beynəlxalq standartların tələblərinə uyğunlaşdırmaq məqsədilə "Metan Rəhbər Prinsipləri" (MGP) təşəbbüsünə qoşulub. Xatırladaq ki, "MGP" hasilatdan istehlaka qədər neft-qaz əməliyyatlarının bütün dəyər zənciri boyunca metan emissiyalarının azaldılması üzrə əsas prioritetləri müəyyən edən qlobal nüfuzlu təsisatdır. Təşəbbüs çərçivəsində üzv şirkətlər tərəfindən metan emissiyalarının azaldılması sahəsində yeni metodologiya və prosedurların hazırlanması, müasir texnologiyaların tətbiqi, emissiyalara dair hesabatvermə, həmçinin bu istiqamətdə əldə olunan qabaqcıl təcrübələrin bölüşməsi kimi fəaliyyətlər həyata keçirilir.

SOCAR, həmçinin BP şirkəti ilə birlikdə Azərbaycanda qabaqcıl sənaye liderləri kimi "MGP" çərçivəsində qlobal metanın azaldılması təşəbbüsünü icra edir. Təşəbbüsün əsas məqsədi Azərbaycanda fəaliyyət göstərən neft-qaz operatorları üçün metan emissiyalarının ölçülməsi, azaldılması fəaliyyətlərinin təşviq edilməsi, bu sahədə hesabatlılığın təmin olunması, bilik və bacarıqların təkmilləşdirilməsi, habelə mövcud ən yaxşı texnologiyaların tətbiqini dəstəkləməkdən ibarətdir. Sözügedən təşəbbüs çərçivəsində 2023-cü il dekabrın 15-də Bakı Ali Neft Məktəbində açılış konfransı keçirilib. 2024-cü ilin aprel ayında təşəbbüs çərçivəsində xidmət təchizatçılarının nümayəndələri üçün Neft Daşları və Səngəçal terminalına sahə səfərləri təşkil edilib.

İyunun 25-də isə metan emissiyalarının azaldılması istiqamətində tətbiq olunan proqram təminatları, bu sahədə beynəlxalq təcrübələr və qabaqcıl emissiya ölçmələrinə həsr olunmuş növbəti "online" görüş keçirilib. Tədbirdə bir sıra tanınmış beynəlxalq təşkilatların, SOCAR və BP şirkətlərinin, habelə ölkədə həyata keçirilən neft-qaz əməliyyatlarının xidmət təchizatçılarının nümayəndələri iştirak ediblər. Eyni zamanda, oktyabr ayının 3-də Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində Daş salnamə muzeyində Qlobal Metanın




Azaldılmasının İnkişafı təşəbbüsünün nəticələrinə dair beynəlxalq konfrans keçirilib. Tədbirdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, SOCAR, BP, "Petronas" kimi beynəlxalq neft-qaz şirkətlərinin, "Baker Hughes", "SLB" və digər xidmət təchizatçılarının, Dünya Bankının, Ətraf Mühitin Müdafiəsi Fondunun və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Beynəlxalq konfrans zamanı "Metan elmi araşdırmaları", "AGMR təşəbbüsünün fəaliyyətində irəliləyişlər, çağırışlar və növbəti addımlar", "Emissiyaların ölçülməsi, uyğunlaşma tədbirləri və onların azaldılmasında texnologiyanın rolu" mövzularında panel sessiyaları keçirilib, həmçinin AGMR təşəbbüsünün icrası zamanı əldə olunan nəticələr, emissiyaların azaldılmasına dair müsbət göstəricilər, icra olunmuş layihələr haqqında geniş fikir mübadiləsi aparılıb.

Məlum olduğu kimi, Azərbaycan Dövlət Neft Şirkəti qlobal iqlim dəyişikliklərində əsas rol oynayan istixana qazı emissiyalarının azaldılması istiqamətdə fəaliyyətin beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması məqsədilə 2023-cü ildə COP28 zamanı geniş ictimaiyyət qarşısında özünün ortamüddətli və uzunmüddətli perspektivdə dekarbonizasiya hədəflərini elan edib. Həmin hədəflər isə 2030-cu ilə qədər bütün əməliyyat sahələrində rutin məşəldə yandırılmanın sıfıra endirilməsi, SOCAR-ın birbaşa aktivləri üzrə 2022-ci ilin göstəricisi ilə müqayisədə 2030-cu ilə qədər "upstream" seqmentində emissiya intensivliyinin 30 faiz, 2022-ci ilin göstəricisi ilə müqayisədə 2035-ci ilə qədər korporativ emissiya intensivliyinin 30 faiz və ümumi emissiyaların həcminin 20 faiz azaldılması, 2035-ci ilə qədər "upstream" seqmentində sıfıra yaxın metan hədəfinə və 2050-ci ilə qədər "xalis sıfır"a nail olunması daxildir. Bu hədəflərə çatmaq üçün tədbirlərin müəyyənləşdirilməsi, aşağı karbonlu layihələrin inkişaf etdirilməsi, habelə neft-qaz əməliyyatları prosesində dekarbonizasiyanın təmin edilməsi üçün "Boston Consulting Group" məsləhətçi şirkəti ilə əməkdaşlıq çərçivəsində ikiillik "Green Lighthouse" layihəsinə start verilib. Hazırda bu istiqamətdə işlər uğurla davam edir.

Müasir texnoloji imkanlardan istifadə etməklə metan emissiyalarının daha dəqiq inventarlaşdırılması Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ətraf mühitin mühafizəsi sahəsində əsas istiqamətlərindən biridir. Bu məqsədlə "TotalEnergies" şirkəti ilə birlikdə neft-qaz mədən ərazilərində dron əsaslı metan emissiyalarının aşkarlanması və həcminin ölçülməsi tədqiqatları həyata keçirilir. Layihə çərçivəsində "TotalEnergies" və onun tərəfdaşları tərəfindən hazırlanmış AUSEA (Airborne Ultralight Spectrometer for Environmental) texnologiyasından istifadə edilməklə emissiya tədqiqatlarının həyata keçirilməsi nəzərdə tutulub. AUSEA metan emissiyalarını aşkarlayan, eyni zamanda, onların mənbəyini təyin edə bilən dronda quraşdırılmış sensordan ibarətdir. Bu isə neft və qaz obyektlərindən atılan metan emissiyalarının yüksək dəqiqliklə aşkarlanmasına və həcminin ölçülməsinə imkan verəcək. Bu sahədə ilkin tədqiqatlar "TotalEnergies" şirkətinin Xəzər dənizindəki fəaliyyət sahələrində aparılıb. Növbəti mərhələlərdə bu tədqiqatların SOCAR-ın dənizdə yerləşən fəaliyyət sahələrində aparılması nəzərdə tutulub.

Bununla yanaşı, qurum hazırda Neft Daşlarında karbon krediti mexanizmi əsasında sızmaların müəyyənləşdirilməsi və aradan qaldırılması layihəsini həyata keçirir. Layihəyə sızmaların müəyyənləşdirilməsi, həcminin ölçülməsi, sızma mənbələrinin ləğv edilməsi və azaldılmış emissiya həcmlərinin sertifikatlaşdırılması daxildir. SOCAR-dan verilən məlumata görə, ötən müddətdə infraqırmızı kamera kimi ən müasir ölçmə avadanlıqlarının tətbiqi ilə layihə ərazisində ölçmələr aparılıb və 171 sızma mənbəyi müəyyənləşdirilib. Bu sahədə ixtisaslaşmış beynəlxalq şirkətin audit yoxlamasının nəticələrindən sonra təmir işləri aparılaraq həmin sızmalar ləğv edilib. Layihə nəticəsində azaldılacaq emissiya həcmlərinin isə sertifikatlaşdırılaraq Avropa bazarında satılması nəzərdə tutulur.

Göründüyü kimi, enerji keçidinin fəal iştirakçılarından birinə keçməyi hədəfləyən Azərbaycanın milli neft şirkəti özünün dekarbonizasiya hədəfləri və qoşulduğu beynəlxalq təşəbbüslər çərçivəsində götürdüyü öhdəliklərə uyğun olaraq istixana qazı emissiyalarının davamlı şəkildə azaldılmasını qarşısına məqsəd qoyub. Bu məqsədlə şirkətin "Upstream", "Midstream" və "Downstream" seqmentlərinə daxil olan müəssisələrdə emissiyaların azaldılması istiqamətində dekarbonizasiya layihələri həyata keçirilir. Həmin layihələrin icrası isə SOCAR-ın neft-qaz əməliyyatları proseslərinin bütün seqmentlərində emissiya intensivliyinin azaldılmasına mühüm töhfələr verəcək.

# ABŞ ekspertinin "yaşıl" nikbinliyi

**COP29-nun respublikamızda keçirilməsi ölkənin "yaşıl" enerjiyə keçidində, eləcə də alternativ enerji potensialının reallaşdırılmasında mühüm mərhələnin başlanğıcı olacaq, eyni zamanda, "yaşıl" enerjinin Avropaya ixracı ilə bağlı layihələrin icrasını sürətləndirəcək.**

Beynəlxalq münasibətlər üzrə ABŞ eksperti Piter Teys mediaya müsahibəsində bildirib ki, Azərbaycan hökumətinin hazırladığı fəaliyyət proqramı iqlim konfransının 3 əsas prinsipinin – ölkənin davamlı iqtisadi artımına, qabaqcıl texnoloji nailiyyətlərin əldə edilməsinə və emissiyaların azaldılması məsələlərinin gerçəkləşdirilməsinə müsbət təsir göstərəcək.

Ekspertin sözlərinə görə, qlobal istiləşməni nəzarət altında və temperaturu 1,5°C-də saxlamaq məqsədilə emissiyaları azaltmaq üçün davamlı tədbirlər görmək, bu təşəbbüsü dəstəkləyənləri bir araya gətirmək zəruridir. Bununla bərabər, iqlim



dəyişikliyi ilə bağlı milli ambisiyaların artırılması və iqlimin maliyyələşdirilməsi təklifləri kimi fəaliyyət üçün lazımi mexanizmlər diqqət mərkəzində saxlanılmalıdır. Bu, emissiyaları azaltmaq, iqlim dəyişikliyinə uyğunlaşmaq və xərclərlə bağlı problemləri həll etmək üçün mühüm amildir.

Amerikalı ekspert Azərbaycanı hazırda qlobal enerji keçidinin əsas iştirakçılarından birinə çevrilməyi hədəfləyir. Bir sıra beynəlxalq tərəfdaşlıqlar, o cümlədən külək stansiyalarının tikintisi üçün "Masdar" ilə birgə müəssisələr və Cəbrayılda 240 meqavatlıq günəş elektrik stansiyasının tikintisi üçün BP ilə əməkdaşlıq çərçivəsində ölkə bərpaolunan mənbələrini diqqət mərkəzində saxlamaqla təmiz enerjiyə sadiqliyini nümayiş etdirir. Bundan əlavə, Azərbaycan Qarabağ regionunu "yaşıl" enerji zonası elan edib və 2030-cu ilə qədər 500 MVt gücə çatmaq məqsədilə hidroenergetika layihələrinə xüsusi önəm verir.

# Bakı konfransında iqlim maliyyəsi üçün mənbələr axtarılacaq

**BMT-nin baş katibi Antonio Quterreş XVI BRICS Sammitinin genişləndirilmiş iclasında COP29 iqlim konfransının iqlim dəyişikliyi ilə mübarizənin maliyyələşdirilməsi planı üçün yeni imkanlar yaradacağını bildirib. Baş katib, eyni zamanda, hər bir ölkənin qlobal istiləşməni 1,5 dərəcə daxilində saxlamaq öhdəliyinə sadiqliyini və emissiyaların azaldılması üçün ciddi tədbirlərin həyata keçirilməsinin zəruriliyini də diqqətə çatdırıb.**

BMT-nin baş katibi qeyd edib ki, inkişaf etmiş ölkələrin iqlim dəyişikliyi ilə mübarizədə götürdükləri öhdəliklər yerinə yetirilməli və bu məqsəd üçün vəsait iki dəfə artırılmalıdır. Həmçinin İtki və Zərər Fon-



du da maliyyələşdirilməlidir. Hər bir ölkə texnologiyanın üstünlüklərindən istifadə etmək imkanına malik olmalıdır. Qlobal rəqəmsal saziş beynəlxalq əməkdaşlığı və potensialı gücləndirməyə xidmət etməlidir.

# "Azərişıq" enerjidoldurma məntəqələri yaradır




**Ölkə Prezident İlham Əliyevin "Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi" haqqında sərəncamına əsasən, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən paytaxtda və regionlarda enerjidoldurma məntəqələri yaradılır. Həmin məntəqələrdə quraşdırılan şarj aparatları dayanıqlı elektrik enerjisi ilə təchiz olunur.**

2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar, eləcə də Bakıda keçiriləcək "COP 29" ərəfəsində paytaxtın əksər rayonlarında şarj aparatları quraşdırılıb. Artıq Nərimanov rayonunda "Azərişıq" ASC-nin Tədris və İnnovasiyalar Mərkəzində, metronun "Gənclik" stansiyasının yaxınlığında, Atatürk parkında, Aşıq Molla Cümə küçəsində 215 saylı yarımstansiyanın qarşısında, Yasamalda 120 saylı yarımstansiyada, Səbaildə Nizami küçəsində və "İçərişəhər" yarımstansiyasında, Maştağa elektrik şəbəkəsinin ərazisində yerləşən "Sea Breeze" yaşayış kompleksinin parkinq ərazisində, Xətaidə "Ağ şəhər-1" və "Ağ şəhər-2" yarımstansiyalarında, Xəzər rayonunun Buzovna qəsəbəsində, Nəsimidə "Dağlıq" yarımstansiyasında, Nizami rayonunda Qara Qarayev prospektində enerji doldurma məntəqələri istismara hazır vəziyyətə gətirilib.

Regionlar üzrə isə Şamaxının Abqora kəndində, Qəbələdə Enerji Təchizatı və Satışı İdarəsinin qarşısında, Şəkinin Göynük kəndində, 110/35/10 kV-luq "Zaqatala yarımstansiyasında, Tovuzda Asan xidmət mərkəzinin yaxınlığında, Göygöldə "Hacıməlik" yarımstansiyasında, Qubada 19 nömrəli yanacaqdoldurma məntəqəsinin yanında və Xızının Yaşma qəsəbəsində şarj məntəqələri yaradılıb. Bununla yanaşı, Zəngilan Elektrik Şəbəkəsinin rəqəmsal idarəetmə mərkəzində enerjidoldurma məntəqəsi müasir avadanlıqla və dayanıqlı elektrik enerjisi ilə təchiz olunub.

"Azərişıq" ASC tərəfindən quraşdırılan yüksək gücə malik sürətli, sabit cərəyanlı məntəqələrdə elektromobillər qısa vaxtda, keyfiyyətli elektrik enerjisi ilə təmin olunur. Elektromobilləri şarj etmək üçün istifadə olunan müasir cihazlar "yaşıl" enerji ilə dəstəklənir.

Vətəndaşların dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunması, elektrik enerjisi itkilərinin minimuma endirilməsini hədəfləyən "Azərişıq" ASC ekoloji cəhətdən üstün olan elektrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi üçün paytaxtda, regionlarda, eləcə də Qarabağ və Şərqi Zəngəzurda enerjidoldurma məntəqələrinin quraşdırılmasını davam etdirir.

# COP29-un nəqliyyat icarəsi tərəfdaşı

**COP29 iştirakçıları üçün avtomobillərin icarəsi xidmətini gerçəkləşdirmək məqsədilə "Rent a Car Baku" şirkəti COP29 Azərbaycan Əməliyyat Şirkətinin nəqliyyat vasitələrinin icarəsi üzrə tərəfdaşı seçilib.**




Əməliyyat Şirkətinin mətbuat xidmətindən verilən məlumata görə, bu il noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək beynəlxalq iqlim konfransında iştirak etmək məqsədilə ölkəmizə gələcək çoxsaylı qonaqların nəqliyyat seçimi ilə bağlı rahatlığını reallaşdırmaq məqsədilə avtomobillərin icarəsi xidməti də fəaliyyət göstərəcək. Belə ki, COP29 müddətində qonaqların nəqliyyat vasitələri ilə təmin edilməsi və bu istiqamətdə daxil olan sorğuların operativ idarə olunması üçün rəsmi tərəfdaş seçilən "Rent a Car Baku" şirkəti qonaqlar üçün sedan, hetçbek, biznes-klas avtomobillər, mikroavtobus, avtobus və yolsuzluq siniflərindən olan avtomobillər də daxil olmaqla hər büdcəyə uyğun geniş nəqliyyat vasitələri seçimi təklif edəcək. Bundan əlavə, təkliflər çərçivəsində sürücü xidməti də əlavə seçim kimi təqdim olunacaq.

Böyük ziyarətçi axının gözlənildiyi tədbir müddətində seçim məhdudiyyətləri ilə üzləşməmək üçün http://www.rentacarbaku.az portalı üzərindən rezervasiyaların əvvəlcədən tamamlanması tövsiyə edilir. Qeyd edək ki, daha geniş heyətlə təmsil olunan nümayəndələr uyğun nəqliyyat vasitələri üzrə qrup rezervasiya sifarişləri üçün, həmçinin şirkətlə birbaşa əlaqə saxlaya bilərlər. Onu da vurğulayaq ki, COP29 iştirakçıları "Rent a Car Baku" rəsmi tərəfdaşla yanaşı, alternativ şirkətlərin xidmətlərini də seçməkdə sərbəstdirlər.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

**Naxçıvan Muxtar Respublikası – 100**

# Naxçıvan muxtariyyətinin Azərbaycanın siyasi tarixində rolu





**Dünən Naxçıvanda Muxtar Respublikanın yaranmasının Azərbaycanın siyasi tarixində rolu mövzusunda konfransın açılış mərasimi keçirilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və konfrans iştirakçıları əvvəlcə toplantının təşkil edildiyi Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş sərgidə nümayiş etdirilən tarixi sənədlərə, ədəbiyyat və mətbuat qaynaqlarına, rəsm və əl işlərinə baxıblar.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli Prezident İlham Əliyevin 2023-cü il dekabrın 30-da "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzaladığını, sənədə əsasən, Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğu nəzərə alınaraq silsilə yubiley tədbirləri keçirildiyini bildirib. O vurğulayıb ki, "Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində rolu" mövzusundakı konfrans da bu tədbirlərin davamı olaraq təşkil edilib. Bütün bunlar Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunun, mühüm strateji-coğrafi önəm daşıdığının göstəricisidir.

Səlahiyyətli nümayəndə qeyd edib ki, 5 min ildən artıq şəhərsalma mədəniyyəti üzərində ucalan və zəngin dövlətçilik tariximizə parlaq səhifələr yazan Naxçıvan ötən 100 ildə gərgin hərbi-siyasi mübarizələrin mərkəzinə çevrilib. Bir əsrdə Naxçıvan 2 dəfə ağır sınaqlar qarşısında qalıb. Əgər XX əsrin əvvəllərində Naxçıvan muxtariyyət statusu alaraq çətin hərbi-siyasi mübarizələrin nəticəsi olaraq işğaldan qorunmuşdursa, 1990–1993-cü illərdə ümummilli lider, müdrik dövlət xadimi Heydər Əliyevin şəxsi nüfuzu, gərgin siyasi mübarizəsi və qətiyyəti nəticəsində bu qədim diyar erməni işğalından, muxtariyyəti isə ləğv olunmaq təhlükəsindən xilas olub.

Fuad Nəcəfli qeyd edib ki, 100 illik muxtariyyət tariximizin ötən 21 illik inkişaf və tərəqqi dövrü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Bu dövrdə Naxçıvanda mühüm infrastruktur tədbirləri həyata keçirilib, sosial-iqtisadi inkişaf təmin edilib, muxtar respublikanın müdafiə potensialı gücləndirilib. Zəngəzur dəhlizinin açılması perspektivində Naxçıvan Muxtar Respublikası ölkəmizin digər bölgələri ilə quru əlaqəsini də təmin edəcək. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunması Naxçıvanda yeni inkişaf mərhələsinin əsasını qoyub.

Natiq daha sonra bildirib ki, dövlət başçısının rəhbərliyi ilə Naxçıvan muxtariyyətinin 100 illiyini uğurla başa vurur. Qarşıda daha böyük hədəflər vardır. Əsas vəzifəmiz ölkəmizin ümumi inkişafının tərkib hissəsi kimi Naxçıvanın da kompleks inkişafına nail olmaq, daha böyük nailiyyətlər qazanmaqdır.

Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən "Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində rolu" mövzusundakı konfransda aparılan müzakirələrin Naxçıvanın muxtariyyət tarixinin öyrənilməsi və təbliği baxımından əhəmiyyətli olacağını, yeni yanaşmalar ortaya qoyulacağını diqqətə çatdıran səlahiyyətli nümayəndə konfransın işinə uğurlar arzulayıb, iştirakçılara və təşkilatçılara təşəkkürünü bildirib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında bildirib ki, Türk-İslam mədəniyyətinin mühüm elementlərini özündə yaşadan Naxçıvanın İslamaqədər və İslamdan sonrakı tarixi dövrləri türk etnoslarının tarix və mədəniyyətinin öyrənilməsində önəmli mərhələ təşkil edir. Qədim diyarımızın tarixinin öyrənilməyən səhifələri, araşdırılacaq çox mövzu və mənbələr mövcuddur. Bu istiqamətdə tədqiqatlar davam etdirilməlidir. Bu gün keçirilən konfrans da birgə araşdırmaların nəticələrinin müzakirəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Sonra Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov, AMEA Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Türkiyənin Ağrı İbrahim Çeçen Universitetinin rektoru, professor Abdulhalik Karabulut və Qars Qafqaz Universitetinin beynəlxalq əlaqələr şöbəsinin rəhbəri, Qafqaz və Orta Asiya Araşdırmalar Mərkəzinin direktoru, professor Hacalı Nəcəfoğlu çıxış ediblər. Vurğulanıb ki, Naxçıvan tarixin müxtəlif mərhələlərində üzərinə düşən vəzifələri uğurla yerinə yetirib. Böyük dövlətlərin maraqlarına sinə gərən bu diyarın əhalisi əzmkarlıq göstərib, bölgənin müdafiəsini təmin edib.

Mərasim bədii hissə ilə davam edib. Naxçıvan Dövlət Universitetinin Tələbə teatr studiyası və simfonik orkestri kompozisiya və konsert proqramı ilə çıxış ediblər.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Bəstəkar Faiq Sücəddinovun "Qarabağnamə"si

**Vətən müharibəsində qələbəmizin 4-cü ildönümü ərəfəsində bütün sənət adamları bayrama yaradıcılıq hesabatları hazırlayırlar. Qocaman bəstəkar, Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü Faiq Sücəddinov da Zəfər yürüşünün ildönümünə özünün növbəti töhfəsi ilə gəlir.**

"Şöhrət" ordenli ünlü bəstəkar "Qarabağnamə" adlı simfonik ballada ərsəyə gətirib. Yeni musiqi əsərinin sözləri Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynova məxsusdur. Onun dediyinə görə, azadlığına qovuşmuş füsunkar məkanın – Qarabağın məşhur insanlarının hekayətləri "Qarabağnamə" adı verilmiş silsilə kitablarda əbədiləşib. "İndi isə 44 günlük Zəfər Yolunu keçmiş ulu torpağımıza aid musiqimizin də öz "Qarabağnamə"si var. Niyyətimiz və istəyimiz "Qarabağnamə" simfonik balladasının Zəfər Günü astanasında səslənməsidir".

Müəlliflərin yeni əsərin ifası ilə bağlı Mədəniyyət Nazirliyinə müraciəti müsbət qarşılanıb və dirijor, Xalq artisti Yalçın Adıgözəlovun idarəsi ilə Dövlət Simfonik





Orkestri və Dövlət Xor Kapellası balladanı məharətlə ifa ediblər. Solo hissəsini beynəlxalq müsabiqələr laureatı olan tenor, Əməkdar artist Ramil Qasımov səsləndirib.

Xatırladaq ki, yaşının ağsaqqal çağında məhsuldar fəaliyyəti ilə seçilən sənətkar Faiq Sücəddinov ötən il sözləri şair Səlim Babullaoğluna aid olan "Zəfər" simfonik poeması və "Şuşa" oratoriyasını da yazıb. Xalq artisti, tenor Samir Cəfərov və xor bu işin öhdəsindən bacarıqla gəlib. Bu ilin əvvəlində "XQ"yə verdiyi müsahibəsində "Zəfər konsertinə hazırlaşıram", – deyən Faiq Sücəddinov, nəhayət, yeni əsərini ərsəyə gətirdi.

**Bəstəkar Faiq Sücəddinovun yeni balladası haqqında dedikləri:**

– "Qarabağnamə"ni əvvəlcə üvertüra kimi təqdim etmək istəyirdim. Sonra Maestro ilə qərara gəldik ki, simfonik orkestr və xor üçün ballada olsun. Ötən şənbə günü artıq əsər lentə yazıldı. Məncə, çox yaxşı alındı. Arzum budur ki, bu simfonik ballada da mədəniyyət mərkəzimiz Şuşada ifa edilsin və səsi dağlarda əks-səda versin.

Biz də 77 yaşlı görkəmli bəstəkarın istəyini istəklə qarşılayır və ona cansağlığı, yeni sənət uğurları arzu edirik.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Sabir Rüstəmxanlı mötəbər akademiyanın fəxri üzvü oldu

**Xalq şairi Sabir Rüstəmxanlı türkdilli xalqların ədəbiyyatı və mədəniyyətinin inkişafı sahəsindəki xidmətlərinə görə Beynəlxalq Aytmatov Akademiyasının fəxri üzvü seçilib.**

Bu barədə qərar mötəbər akademiyanın Rəyasət Heyətinin iclasında verilib.

Qeyd edək ki, Aytmatov İctimai Akademiyası 1994-cü ildə böyük qırğız yazıçısı Çingiz Aytmatovun türk ədəbiyyatının irsinin saxlanılması və genişləndirilməsi məqsədilə yaradılıb. Dörd ildən bir onun fəxri və həqiqi üzvləri – görkəmli yazıçılar, dramaturqlar, şairlər, filosoflar, tarixçilər, aktyorlar, rejissorlar, dilçilər, professorlar və elmlər doktorları seçilirlər.

***XQ***




**Vida sözü**

# Özü getdi, səsi qaldı...

**Görkəmli opera müğənnisi, Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü Şahlar Quliyev artıq 3 gündür ki, haqq dünyasına qovuşub. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi onun vəfatı ilə əlaqədar yaxınlarına, eləcə də musiqi və teatr ictimaiyyətinə dərin hüznlə başsağlığı verib.**

Cəlilabad rayonunda dünyaya göz açmış Şahlar Quliyev İncəsənət İnstitutunu, sonra Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını (professor E.Quliyevanın sinfi) bitirmişdi. 1975-ci



ildən Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının yüksək kateqoriyalı solist-vokalçısı (bariton) idi.

Tələbəlik illərində konservatoriyanın rektoru Soltan Hacıbəyov ona böyük qayğı göstərib, təqaüd almasında dəstəkçisi olub və sənətkar kimi parlamasına çalışıb. Milli teatrımızın tanınmış siması, yüksək kateqoriyalı opera solist-vokalçısı kimi Şahlar Quliyev teatrın repertuarında olan əksər milli və klassik opera tamaşalarında əsas rollarda çıxış edib. "Leyli və Məcnun"da Nofəl, "Şah İsmayıl"da Aslan şah, "Aşıq Qərib"də Şahvələd, "Sevil"də Atakişi, "Arşın mal alan"da Süleyman, "Gəlin qayası"nda Xan, "Koroğlu"da Həsən xan, "Aida"da Amonasro, "Riqoletto"da Monterone, "Toska"da Skarpia, "Karmen"də Eskamilio, "Payatsı"da Tonio, "Boheme"də Şonar, "Natəvan"da Qasım bəy Zakir obrazlarını, ümumilikdə, 28 rolu yüksək professionallıqla ifa edərək, tamaşaçı rəğbəti qazanıb. Şahlar Quliyevin vokalçı kimi repertuarında uzun illər böyük məharətlə ifa etdiyi Aslan şah partiyasının xüsusi yeri var. O, 100 dəfə oynadığı həmin rolda yaratdığı qəddar hökmdar obrazının cizgilərini böyük məharətlə göstərə bilirdi. Şahlar Quliyev, həmçinin "Qız qalası" (2000-ci il) və "Bəylik dərsi" (2007-ci il) filmlərində rol alıb.

Operada Firəngiz Əhmədova, Lütfiyar İmanov, Firudun Mehdiyev, Adil Məlikov, Əli Haqverdiyev və daha kimləri görmədim. Sonrakı nəsil Zeynəb Xanlarova, Arif Babayev, Canəli Əkbərov, Baba Mahmudoğlu və başqaları ilə bir səhnəni paylaşıb. O qədər təvazökar idi ki, səhnədə odlu-alovlu çıxışlar etsə də, sonra sakit təbiəti ilə geri çəkilir, sanki varlığını hiss etdirmirdi.

Sənət haqqında söylədikləri: "Obraz oynadığın əsərə bələd olmadan, librettonu bilmədən, zənnimcə, səhnədə heç bir şey etmək olmaz. Obraz üzərində düşünmək, onun daxili dünyasını öyrənmək və



əlbəttə ki, özününküləşdirməyi bacarmaq əsas şərtdir". "Şəxsən məni hər bir əsərdə musiqi idarə edir, musiqi istiqamətləndirir. Ümumiyyətlə, əsərdəki hadisələrlə musiqinin üst-üstə düşməsi önəmli məqamlardan biridir. Hələ tamaşa hazırlandığı zaman bəstəkar hadisələrdən çıxış edərək ona uyğun ovqatlı musiqi yazır".

Şahlar Quliyev Şimali Kipr, Türkiyə və s. ölkələrdə Azərbaycan opera sənətini layiqincə təmsil edib. Vaxtaşırı dövlət konsertlərində çıxışları ilə yadda qalıb. 2005-ci ildə Şahlar Quliyev Xalq artisti fəxri adına layiq görülüb. Sənətsevərlər dogma teatrda qeyd olunan 60 illik yaradıcılıq gecəsində onun Üzeyir Hacıbəylinin "Koroğlu" operasından Həsən xanın, 70 illik yubileyinin isə Müslim Maqomayevin "Şah İsmayıl" operasından Aslan şahın partiyası ilə çıxış etməsini indi də yaxşı xatırlayırlar. Tanınmış incəsənət xadimləri Ramiz Zöhrabov, Arif Babayev, Səkinə İsmayılova, Azər Zeynallı və başqaları Şahlar Quliyevin sənətkarlıq məziyyətlərini yüksək qiymətləndiriblər.

Görkəmli sənətkar Şahlar Quliyevin əziz xatirəsi onu sevənlərin qəlbində yaşayacaq.

***Ə.ƏLİYEV***
***XQ***

# XIX Bakı Caz Festivalı sona çatdı



**On gün davam edən XIX Bakı Caz Festivalının yekun konserti "The Jazz Club"da təşkil olunub. Amerikalı müğənni və aktrisa Şeril Pepsi Reyli və "Interplay" qrupunun çıxışı ilə festivalın son akkordları vurulub.**

Konsert başlamamışdan əvvəl Bakı Caz Festivalının təşkilatçısı və bədii rəhbəri Rain Sultanov qonaqları salamlayıb. Sonra, ABŞ səfirliyinin nümayəndəsi Bill Murat çıxış edərək, səfirlik olaraq artıq neçə ildir ki, Bakı Caz Festivalına dəstək göstərdiklərini deyib.

İfaçı səhnəyə çıxaraq, valehedici vokal və zərif improvizasiya bacarıqları ilə cazsevərləri heyran edib.

Uğurla keçən konsertdən sonra Şeril Pepsi Reily "XQ"yə müsahibə verdi: "Bakıya ilk dəfədir gəlirəm. Buranın havası çox gözəl, insanları olduqca səmimi və mehribandır. Ölkənizdə bu cür festivalların keçirilməsini alqışlayıram. Bu cür musiqi tədbirlərinin təşkili gənc ifaçılar üçün də önəmlidir. Bu, onlara musiqi sahəsində özünü daha rahat ifadə etmək üçün imkanlar yaradır".

Xatırladaq ki, XIX "Baku Jazz Festivalında 11 ölkədən ifaçılar şəhərin müxtəlif konsert məkanlarında çıxış ediblər.

***Fidan SALMANOVA***
***XQ***

# Leysan paytaxtı yenidən sınağa çəkdi

*Xidmət qurumları öz vəzifələrinə bu dəfə daha məsuliyyətlə yanaşdılar*

**Dünən, oktyabrın 28-i günün birinci yarısında Bakıda və Abşeron yarımadasında qısamüddətli leysan xarakterli yağış yağdı. Elə bir leysan ki, necə deyərlər, tut ucundan göyə çıx...**



Şəhər sakinləri aramsız yağan yağışın ağır fəsadlar törədə biləcəyindən narahat idilər. Çünki cəmi 1 həftə əvvəl də şəhərdə leysan yağışları olmuş və təəssüf ki, yağan güclü yağış ağır fəsadlarsız ötüşməmişdi. Belə ki, şəhərin bir çox küçələri və tunelləri piyadaların və nəqliyyatın hərəkəti üçün keçilməz hala düşmüşdü.



Dərhal qeyd edək ki, xoşbəxtlikdən bu dəfə müvafiq qurumlar öz vəzifələrinə daha məsuliyyətlə yanaşaraq, yağışın ciddi fəsadlar törətməsinin qarşısını ala bildilər. Etiraf edək ki, təhlükə kifayət qədər güclü idi. Milli Hidrometeorologiya Xidmətinin rəsmisi Gülnarə Abbasova bildirmişdi ki, yağıntının miqdarı 9 millimetrdən çox olub və bu, aylıq normanın 30 faizi qədərdir.

Xidmətin rəsmisi, həmçinin vurğulamışdı ki, günorta saatlarında Bakıda və Abşeron yarımadasında yağış kəsilsə də, günün ikinci yarısınadək bəzi ərazilərdə fasilələrlə davam edib.

Dünən Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, paytaxtda bəzi ünvanlarda subasmanın baş verməsi barədə FHN-nin "112" qaynar telefon xəttinə məlumatlar daxil olub və dərhal nazirliyin qüvvələri ərazilərə cəlb olunub. Nazirliyin qüvvələri vaxt itirmədən su basmış yerlərdən suyun çəkilərək kənarlaşdırılmasını təmin ediblər və digər müvafiq təhlükəsizlik tədbirləri həyata keçiriblər.

Dünən səhər saatlarından etibarən bəzi KİV-lərdə paytaxtın Heydər Əliyev prospektində yerləşən "Bağırov" körpüsünü yenidən su basması məlumatı yayılıb. Bakı Şəhər İcra Hakimiyyətinin məsul əməkdaşı bu məsələ ilə bağlı bildirib ki, səhər saatlarından etibarən aidiyyəti qurumların birgə əlaqəli fəaliyyəti nəticəsində sözügedən obyektdə yaranan subasma təhlükəsi aradan qaldırılıb. Körpüyə aid su nasosları hazırda adi rejimdə işləyir, bura əlavə texnika və işçi qüvvəsi cəlb edilib. Yeri gəlmişkən, paytaxtda riskli ərazilərdə yerləşən digər körpü və keçidlər də nəzarətdə saxlanılıb.

Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzindən isə mətbuata məlumat verilib ki, dünən paytaxtda yağan leysan yağışları nəticəsində şəhərin bir çox mərkəzi küçələrində avtomobillərin sıxlığı müşahidə olunub. Lakin tezliklə nəqliyyat vasitələrinin sərbəst hərəkətini də təmin etmək mümkün olub.

Sonda bildirək ki, bu gün Bakıda və Abşeron yarımadasında, eləcə də ölkəmizin bir çox bölgələrində hava yağmursuz olacaq. Ən azı, leysan yağışların yağması təhlükəsi minimaldır.

***M.HACIXANLI***
***XQ***

# AMEA Əməkdar jurnalisti təltif edib

**Azərbaycan Milli Elmlər Akademiyasının Hümanitar Elmlər Bölməsi Əməkdar jurnalist, "Xalq qəzeti" baş redaktorunun müavini Tahir Aydınoğlunu anadan olmasının 65 illiyi münasibətilə və mediada elmin populyarlaşdırılmasında xidmətlərinə görə fəxri fərmanla təltif edib.**

AMEA Rəyasət Heyətində mükafatı jurnalistə təqdim edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Tahir Aydınoğlunu səmimi təbrik edib, onun Azərbaycan Televiziyasında və "Xalq qəzeti" redaksiyasında 40 ildən artıq müddətdə peşəkar fəaliyyətinin AMEA-nın həyatı, onun qurumlarının elmi-humanitar axtarışları ilə sıx bağlı olduğunu söyləyib. Elm və medianın səmərəli əməkdaşlığının ölkəmizin hərtərəfli tərəqqisinə bundan sonra da töhfələr verəcəyini qeyd edən akademik bu prosesdə həmkarımıza uğurlar arzu edib.

"Xalq qəzeti"nin ölkəmizin ictimai-siyasi həyatının media xronikasını yaratmaqda, obyektiv ictimai rəy formalaşdırmaqda rolunu yüksək qiymətləndirən AMEA prezidenti bu yaxınlarda 105 yaşını qeyd etmiş bu qocaman və avanqard nəşrin son illərdəki yaradıcılıq axtarışlarının çağdaş media çağırışlarını əhatəli cavablandırdığını vurğulayıb. O, alimlərimizin redaksiya ilə əməkdaşlığa önəm verdiyini, elmi maarifləndirmə işinə dəstəyini artıracağını da bildirib.



Tahir Aydınoğlu göstərilən diqqətə, fəaliyyətinin elmi-humanitar yönünə verilən dəyərə görə təşəkkürünü ifadə edib, təqdir edilən xidmətini bundan sonra da davam etdirəcəyini söyləyib.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Ədəbiyyatımızın "Ulduz"u



AYB-nin ədəbi orqanı olan "Ulduz" jurnalının oktyabr sayı işıq üzü görüb.

Bu say Əlizadə Nurinin "Özüylə söhbəti…" və şeirləri ilə açılır. Növbəti səhifələrdə Ruslan Mollayevin "Aktrisa" hekayəsi verilib və ardınca Məti Osmanoğlu "Gənc yazarlar üçün ustad dərsi" keçir.

"Şeir vaxtı"nda Vüqar Rahi, Ramil Mərzili, Aysel Xanlarqızı, Xəyalə Sevil, Gülər Mübariz, Anar Seyidağa, Ülkər Nicatlı, İmir Məmmədlinin poetik nümunələri təqdim olunur. Hər müəllifin öz dəst-xətti, mövzuya öz yanaşma tərzi hiss edilir.

Xanəmir Telmanoğlu "Qızıl alma vücudnaməsi", Alpay Azər "Ali rütbəli nəzarətçilər", Nurlana İşıq "Qazinin izi", Rey Kərimoğlu "Telli Mədət və Xankəndidə torpaq satan dəli qadın" (sənədli hekayə), Səadət Musayeva "Son çağırış" hekayələri ilə oxucuların görüşünə gəlib. "Nağıl" rubrikasında "Tənbəl ayı"sı ilə Əfsanə Rəhimli yer alıb.

Fələstin və iordan əsilli şair, rəssam Əli-Əl-Əmirinin "Dünya poetik sanitariyaya möhtacdır…" essesi, Elxan Yurdoğlunun 70 yaşı tamam olan İbrahim Yusioğluna dost məktubu,"Anım" rubrikasında Aydın Tağıyevin unudulmaz şair Səyavuş Sərxanlı haqqında yazısı da maraq kəsb edir. "Dərgidə kitab"rubrikasında isə Nemət Mətin "Yük" yazısıyla çıxış edir.

***XQ***

# Özbəkistanda parlament seçkiləri uğurla başa çatıb

*Səsvermə şəffaf, demekokratik və ədalətli qaydada keçib*

**Bazar günü Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasına və vilayət, şəhər, rayon şuralarına keçirilən seçkilərin nəticələri dünən elan olunub.**




Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri Zayniddin Nizamxocayev Daşkənddə keçirdiyi brifinqdə bildirib ki, seçkilərdə səs hüququ olan 19 milyon 944 seçicinin 15 milyon 27 min 527 nəfəri səs verib. Bu, ümumi seçicilərin 74,72 faizi deməkdir. MSK sədri qeyd edib ki, 150 deputat mandatı uğrunda mübarizəyə 875 namizəd qatılıb. İlk dəfə deputatların 75-i mojoritar, 75-i isə proporsional sistemlə seçilib.

Bildirilib ki, 150 deputat yerindən Sahibkarlar və İşgüzar Adamlar – Özbəkistan Liberal-Demokratik Partiyası 64 (42,7 faiz), "Milli Dirçəliş" Demokratik Partiyası 29 (19,3 faiz), "Ədalət" Sosial-Demokrat Partiyası 21 (14 faiz), Xalq Demokrat Partiyası 20 (13 faiz) və Ekoloji Partiya 16 (10,7 faiz) mandat qazanıb.

Zayniddin Nizamxocayev yeni seçilən deputatları təbrik edib, onlara Özbəkistanın inkişafı və dirçəldilməsi istiqamətindəki fəaliyyətlərində uğurlar arzulayıb.

***

Xəbər verdiyimiz kimi, Azərbaycan Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun başçılığı ilə nümayəndə heyəti, Azərbaycan insan hüquqları üzrə müvəkkili (ombudsman) aparatının nümayəndələri, Azərbaycan Milli Məclisinin deputatları qardaş ölkədə keçirilən seçkiləri müşahidə etmək üçün Özbəkistanda olublar. Seçkilərdən sonra Azərbaycan heyətinin müşahidə missiyası barədə Daşkənddə XQ-yə operativ müsahibə verən Məzahir Pənahov bildirib:

– Azərbaycan seçkilərə 20 nəfərlik nümayəndə ilə qatılıb. Missiyamıza daxil olan Azərbaycan insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva və Ombudsman Aparatının əməkdaşları, Müstəqil Dövlətlər Birliyinin xətti ilə Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyevin rəhbərliyi ilə nümayəndələr, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, deputatlar Cavanşir Paşazadə, Arzuxan Əlizadə, Ağalar Vəliyev TÜRKPA xətti ilə, deputat Səbinə Salmanova MDB PA xətti ilə, deputatlar Qaya Məmmədov və Azay Quliyev ATƏT PA xətti ilə seçkiləri yaxından və diqqətlə izləyiblər. Onlar səsvermə prosesini Daşkənd şəhərində və vilayətində, Səmərqənd və Buxara şəhərlərində müşahidə ediblər.

Ümumiyyətlə, Özbəkistan parlamentinə seçkiləri dünyanın 50-dən artıq ölkəsindən gələn 1000-dən çox beynəlxalq müşahidəçi, 20-dən artıq beynəlxalq təşkilatın nümayəndələri, o cümlədən Müstəqil Dövlətlər Birliyi, Şanxay Əməkaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, həmçinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun missiyası seçki prosesini müşahidəçi kimi izləyiblər.

Qaradaş ölkədə budəfəki parlament seçkiləri yenilənmiş Konstitusiyaya və milli seçki qanunvericiliyinə əsasən, ilk dəfə majoritar-proporsional sistem əsasında keçirilib. Ali Məclisin Qanunvericilik Palatasını ölkədə fəaliyyət göstərən 5 partiya – Sahibkarlar və İşgüzar Adamlar – Özbəkistan Liberal-Demokrat Partiyası, "Milli Dirçəliş" Demokratik Partiyası, "Ədalət" Sosial-Demokrat Partiyası, Xalq Demokrat Partiyası və Ekoloji Partiya formalaşdırıb.



**– Məzahir müəllim, siz seçkiləri Daşkənd şəhərində izləyirdiniz, təəssüratınız necədir?**

– Seçkilər beynəlxalq standartlara və normalara, milli seçki qanunvericiliyinə və bu sənəddə əksini tapan demokratik, açıq, şəffaf və ədalət prinsiplərinə uyğun və ölkə vətəndaşlarının fəal iştirakı ilə keçirilib. Onu da deyim ki, Özbəkistanda demokratiya prinsiplərini gücləndirən islahatlar davam edir. Oktyabrın 27-də keçirilən seçkilər bunu əyani şəkildə nümayiş etdirdi. Daşkənd şəhərinin ayrı-ayrı seçki məntəqələrində ölkə tarixində ilk dəfə elektron səsvermə eksperimental qaydada həyata keçirildi. Seçki prosesinin canlı videoyayımı məqsədilə rayon və şəhərlərdəki səsvermə məntəqələrində kameralar quraşdırılıb.

**– Siz Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri Zayniddin Nizamxocayevlə də görüşdünüz...**

– Görüşümüz seçki bitəndən sonra oldu. Həmkarımı Ali Məclisə seçkilərin yüksək səviyyədə təşkili və uğurla başa çatması münasibətilə təbrik etdim. Səmimi söhbət zamanı Azərbaycanla Özbəkistan arasında bütün sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi, əlaqələrin bundan sonra da yüksələn xəttlə dərinləşməsinə əminlik ifadə olundu. Məmnunluqla qeyd edildi ki, Azərbaycan və Özbəkistan Prezidentləri İlham Əliyevlə Şavkat Mirziyoyevin şəxsi dostluq əlaqələri dövlətlərimiz və xalqlrımız arasında bütün sahələrdə əlaqələrin genişlənməsinə təkan verib. Biz Türk Dövlətləri Təşkilatının üzvü kimi də əməkdaşlığımızın uğurlu olacağına ortaq inamımızı ifadə etdik.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***
**Daşkənd**


# Azərbaycan İdman Akademiyası

*Aşağıdakı kafedralar üzrə kafedra müdiri və professor-müəllim vəzifələrinə*

## MÜSABİQƏ ELAN EDİR

**Bədən tərbiyəsi və idmanın nəzəriyyəsi və metodikası kafedrası**
Kafedra müdiri – 1 ştat
Kafedra üzrə dosent – 2 ştat
Kafedra üzrə baş müəllim – 1 ştat
Kafedra üzrə müəllim – 2 ştat
**Fiziki hazırlıq kafedrası**
Kafedra müdiri – 1 ştat
Kafedra üzrə baş müəllim – 7 ştat
**İdman menecmenti və kommunikasiya kafedrası**
Sahibkarlığın əsasları fənni üzrə baş müəllim – 0,5 ştat
İdman jurnalistikasının əsasları fənni üzrə müəllim – 0,5 ştat
**İdman tibbi və reabilitasiya kafedrası**
Kafedra müdiri – 1 ştat
İdman təbabəti fənni üzrə baş müəllim – 1 ştat
Müalicə bədən tərbiyəsi fənni üzrə müəllim – 1 ştat
İdman zədələnmələri fənni üzrə müəllim – 1 ştat
**İdmanın oyun növləri kafedrası**
Voleybol idman növünün tədrisi üzrə baş müəllim – 1 ştat
Futbol idman növünün tədrisi üzrə müəllim – 1 ştat
Stolüstü tennis idman növünün tədrisi üzrə müəllim – 1 ştat
**İdmanın təkmübarizlik növləri kafedrası**
Yunan-Roma güləşi idman növünün tədrisi üzrə baş müəllim – 1 ştat
Ağırlıqqaldırma idman növünün tədrisi üzrə müəllim – 1 ştat
**Kütləvi-sağlamlıq idman növləri kafedrası**
Atletika idman növünün tədrisi üzrə baş müəllim – 1 ştat
**Sosial elmlər kafedrası**
Azərbaycan dili və nitq mədəniyyəti fənni üzrə dosent – 1 ştat
Xarici dildə işgüzar kommunikasiya fənni üzrə baş müəllim – 2 ştat
İdman psixologiyası fənni üzrə baş müəllim – 1 ştat
İngilis dili fənni üzrə müəllim – 2 ştat
Azərbaycan dili və nitq mədəniyyəti fənni üzrə müəllim – 1 ştat
Azərbaycan tarixi fənni üzrə müəllim – 1 ştat
**Tibbi-bioloji elmlər kafedrası**
Anatomiya və morfologiya fənni üzrə baş müəllim – 2 ştat
MBT və massaj fənni üzrə müəllim – 1 ştat
İdman farmakologiyası fənni üzrə müəllim – 1 ştat
Biokimyanın əsasları fənni üzrə müəllim – 1 ştat
Sənədlər müsabiqə elan edildiyi gündən bir ay ərzində təqdim edilə bilər.
Məlumat telefonu- 012-564-33-75.

***REKTORLUQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 238 (30642) 29 oktyabr 2024-cü il, çərşənbə axşamı

## İdman xəbərləri

# Güləş komandamız dünya 3-sü olub



**Albaniyanın paytaxtı Tiranada keçirilən U-23 dünya çempionatı başa çatıb.**

Sərbəst güləş üzrə millimiz mundialı 1 qızıl, 2 gümüş və 1 bürünc medalla başa vurub. Yekunda 100 xal toplayan yığmamız komanda hesabında dünya 3-sü olub. İran (158) 1-ci, Yaponiya (102) isə 2-ci yerləri tutublar.

Xatırladaq ki, milli komandanın tərkibində Maqomed-Başir Xaniyev (70 kq) qızıl, Ruslan Abdullayev (61 kq) və Arseniy Djioyev (86 kq) gümüş, Cəbrayıl Qadjiyev (74 kq) isə bürünc medal qazanıblar.

# Latviyada 9 mükafat



**Azərbaycanın stolüstü tennisçiləri Latviyanın paytaxtı Riqada keçirilmiş “Riga City Council’s Youth Cup” beynəlxalq turnirində 3-ü qızıl, 1-i gümüş, 5-i bürünc olmaqla 9 medal qazanıblar.**

Azərbaycan Stolüstü Tennis Federasiyasından verilən məlumata görə, Onur Quluzadə ilə Yağmur Məmmədli 13 yaşlılarda baş mükafata sahib çıxıblar. Şəbnəm Mansurova isə U-15 yaş dərəcəsində fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Həmin yaş qrupunda qüvvəsini sınayan Onur Quluzadə 2-ci, Yağmur Məmmədli 3-cü yerləri tutublar. U-19 kateqoriyasında isə Onur Quluzadə, Tunar Bağırov, Şəbnəm Mansurova və Yağmur Məmmədli bürünc mükafat əldə ediblər.

# 8 boksçumuz gimnaziada finalında



**Azərbaycanın 8 boksçusu Bəhreynin paytaxtı Manama şəhərində keçirilən Gimnaziada İdman Oyunlarında uğurla çıxış edərək finala vəsiqə qazanıb.**

Oğlanların yarışında Əli Əliyev (46 kq), Nihad Qasımov, Şahin Mustafayev (hər ikisi 50 kq), Zakir Həsənzadə (52 kq), Sübhan Babayev (54 kq), Şahin Aslanov (60 kq) və Haqverdi Həsənov (63 kq), qızlar arasında isə Aysu Mikayılova (52 kq) qızıl medal uğrunda mübarizə aparacaqlar.

Birinci yer uğrunda qarşılaşmalar oktyabrın 29-da olacaq.

Qeyd edək ki, oktyabrın 30-dək davam edəcək Gimnaziadada Azərbaycan 16 növ üzrə 160 idmançı ilə təmsil olunur.

*Leyla QURBANOVA*
*XQ*

***✓ 2009-cu il dekabrın 16-da Azərbaycan Respublikası Dini Qurumlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş Masallı rayonu Mahmudavar kənd məscidi dini icmasına məxsus 100109A3-108 saylı dövlət qeydiyyatı haqqında şəhadətnamə və nizamnamə itdiyi üçün etibarsız sayılır.***


# OXUCULARIN NƏZƏRİNƏ!

# “Xalq qəzeti”

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Asiya bəbirləri Hirkan Milli Parkında

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi, IDEA İctimai Birliyi, Ümumdünya Təbiəti Mühafizə Fondu ilə birgə Hirkan Milli Parkının ərazisində keçirilən növbəti monitorinq zamanı foto-tələlər vasitəsilə Asiya bəbirlərinin artımı müşahidə olunub.**




Hirkan Milli Parkı ərazisində quraşdırılan müşahidə kameraları həm video, həm də şəkil lentə alır. Hər üç aydan bir yoxlanılır və məlumatlar bazaya ötürülür.

Xatırladaq ki, Asiya bəbiri yırtıcılar dəstəsinə aid olub, Ümumdünya Təbiəti Mühafizə İttifaqının “Qırmızı Siyahısı”na və Azərbaycan Respublikasının “Qırmızı Kitabı”na daxil edilib.

*XQ*

## Futbol tariximizdən

# 1976-cı ilin yayı idi...

**O gün futbolumuzun bir əsrlik yubileyi münasibətilə 2011-ci ildə AFFA-nın nəşr etdirdiyi “Azərbaycan futbolu–100” kitabını vərəqləyirdim. Kitabın 81-ci səhifəsində 1976-cı ildə lentə alınmış foto diqqətimi çəkdi. Təqdim etdiyimiz fotodakı tablodan da göründüyü kimi, onda SSRİ çempionatının 1-ci dəstəsində yarışan “Neftçi” Respublika stadionunda Kişinyovun “Nistru” komandasını qəbul etmiş və 1:0 hesabı ilə qələbə qazanmışdır. Qolun müəllifi isə “11 nömrə” Nikolay Smolnikov olmuşdur.**




Mənə maraqlı görünən foto ətrafında məlumatımı artırmaq istədim və bu məqsədlə axtarışa çıxıb, statistikaya müraciət etdim. Məlum oldu ki, moskvalı hakim Valeri Butenkonun idarə etdiyi oyun 1976-cı il iyunun 19-da keçirilmişdir. Həmin mövsüm Azərbaycan paytaxtı komandası üçün uğurlu olmuş, futbolçularımız 4 illik fasilədən sonra 1977-ci ildə yenidən güclülər dəstəsində çıxış etmək hüququ qazanmışlar.

İyirmi kollektivin yarışdığı 1-ci dəstədə çempionatın qalibi finişə 56 xalla çatan Alma-Atanın “Kayrat” komandası olmuşdur. Qazaxıstan təmsilçisindən 2 xal geri qalan “Neftçi” 54 xalla 2-ci yeri tutmuş və hər iki klub güclülər dəstəsinə vəsiqəyə sevinmişdir. Müqayisə üçün deyim ki, üçüncü yerin sahibi “Paxtakor” (Daşkənd) həmyerlilərimizdən 6 xal az toplamışdır.

Həmin yay axşamında stadionun tribunalarına toplaşan minlərlə pərəstişkarını 59-cu dəqiqədə Smolnikovun qolu ilə sevindirən “Neftçi” qələbəni belə heyətlə qazanmışdı: Yuri Romenski, Rafiq Quliyev, Bəxtiyar Qulamov, Arif Orucov, Asəf Namazov, Tofiq Abbasov, Rafiq Əlizadə (Anatoli Banişevski, 46), Əli Rəhmanov, Elbrus Abbasov, Səməd Qurbanov, Nikolay Smolnikov.

Burada bir daha 48 yaşlı foto haqqında. Şəkildə Banişevskinin yüksəkdən ötürülən top uğrunda moldovalı müdafiəçilərlə əzmkar mübarizə apardığını görürük. Onun sağındakı oyunçu isə Elbrus Abbasovdur. Çempionat – 76-da 1-ci dəstənin ən məhsuldar futbolçusu da məhz Abbasov olmuşdur. Elbrusun dəqiq zərbələrindən sonra rəqib komandaların qapıçıları topu 28 dəfə tordan çıxarmışlar. Elə çempionatda ən çox qolun sevincini də “Neftçi” yaşamışdır. Həmin il komandamız 70 top vurmuşdur.

Bakı futbolçuları güclülər dəstəsinə qayıtdıqları ilk mövsumdə isə (1977-ci il) 16 komandanın mübarizəsində kifayət qədər etibarlı oyun nümayiş etdirib, 27 xal qazanmış və 13-cü yeri tutmuşlar. Çempionatda klubun ən sərrast oyunçusu 9 qolun müəllifi Smolnikov olmuşdur. Onun “Neftçi”nin tərkibində SSRİ çempionatlarında (güclülər dəstəsi və 1-ci dəstə) üst-üstə 79 top vurduğunu da xatırlaya bilərik.

A.Banişevski və E.Abbasovun, eləcə də, əbədiyyətə qovuşmuş digər futbolçularımızın ruhu şad olsun. Bu ilin mart ayında 75 yaşı tamam olmuş N.Smolnikov isə, deyəsən, hazırda Rusiyanın Kolomna şəhərində yaşayır.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

## Sənət inciləri

# Rənglərin torpaq nəğməsi

**Görkəmli Azərbaycan rəssamı Böyükağa Mirzəzadə çox sayda süjetli tabloların, portretlərin, tamaşa tərtibatlarının müəllifidir. İstedadlı fırça ustasının uğurlu tablolarından biri “Pambıq tarlasında” adlanır.**



Əsərdə ön planda isə bir neçə zəhmət adamı – qadın, kişilər və uşaqları təsvir olunub. Onların yerdə süfrə açıb nahar etdikləri bir vaxtda poçtalyon pambıqçı qadınlardan birinə yaxınlaşaraq, ona doğmalarından gətirdiyi məktubu uzadır.

Əsər süjetli tablo janrındandır, istehsalat-məişət mövzusunda təsvir edilib. Bu da rəssamın yaradıcılığının əsas cəhətlərindən biridir.

Qeyd etmək lazımdır ki, bu tablo rənglərin özünəməxsus fon keçidləri, işıq-kölgə effektlərinin ahəngi ilə seçilir. Bu əsərdə sarı, yaşıl, ağ, qırmızı, bir sözlə, al-əlvan rənglər yer alır.

B.Mirzəzadənin bir sıra əsərləri, eləcə də “Pambıq tarlasında” adlı əsəri Rüstəm Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyində qorunub saxlanılır.

*Leyla HADİ,*
*tələbə-jurnalist*



# Yağmursuz və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 29-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə arabir duman olacaq. Şimal-qərb küləyi əsəcək. Gecə 8-11°, gündüz 15-18° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 766 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz olacaq. Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında az çiskinli olacağı gözlənilir. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-8°, gündüz 14-19° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-8° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2483
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00